# ADP Brüssel görüşünü təqdir edir

SİZİN ÜÇÜN QƏZET

№30 (3228) 6 Sentyabr / 2022-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik



## Ramiz Mehdiyev hakim qarşısına çıxarıla bilər

# General Orucovun həbsinin şok detalları...




Siyasət



Şahin Cəfərli: "Rusiya enerjidən silah kimi istifadə etmək imkanlarının sonuna yaxınlaşır"

Mövqe

## Məni nifrət yox, ikrah hissi danışdırır

Xalqın gül balaları şəhadətə çatanda ölkəni talan və tarac edən amansız bir zümrə... 3

Ölkə

Əmlak Məsələləri üzrə Dövlət Xidməti üzərinə düşən işi görmür; vətəndaşlar Kərəm Həsənov Əmlak Komitəsinə geri qaytarılmasını istəyir

Hüquq

## Binəqədi prokurorunun “sudan quru çıxmaq” cəhdi

Başqasının qanunsuz hərəkətlərini əsaslandırmaq Fuad Məmmədovu məsuliyyətdən azad edə bilərmi? 11

Sənət

Gündəm

## Səlim Müslümov özünü təqsirli bildi...



O, mənimsədiyi 27 milyon manatın 20 milyon manatını dövlət büdcəsinə qaytarıb 2

Layihə

## Erməni separatçıların Qarabağa qanunsuz səfərləri...



Məhəmməd Əsədullazadə: "Hazırda Rusiyadan növbəti dəfə Qarabağda yeni problem körükləmək cəhdləri müşahidə edilir" 5

Şikayət

## Daşkəsən sakininin pay torpağı zəbt olunub

“Hürriyyət” məsələni işıqlandırdıqdan sonra Gəncə şəhər 5 saylı Notarius ofisinin rəhbəri torpağın pulunu verməyə hazır olduğunu bildirib...

Daşkəsən rayon sakini İsgəndərova Həcər Talıb qızı "Hürriyyət"ə növbəti dəfə müraciət edərək bildirir ki, 1997-ci ildə ona verilmiş pay torpağı qanunsuz olaraq başqasına satılıb. Şikayətçi deyir ki, rayonun Xoşbulaq kəndində yerləşən özünə məxsus pay torpağı Gəncədə yerləşən 5 saylı notariat ofisinin rəhbəri Ələkbərov Aris Elman oğlu və Xoşbulaq kəndinin bələdiyyə sədri Rasim Allahverdiyev tərəfindən mənimsənilib... 7

Reportaj

## “Bilmirsiniz, bura türmələrin rəisi Ceyhun müəllimin obyektidir!”

General-leytenantın restoranında “Penitensiar pomidoru” yeməyin bir başqa ləzzəti varmış...

“Hürriyyət”in ötən saylarının birində “Ceyhun Həsənovun yeni sort pomidoru ölkədə böyük marağa səbəb olub” sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini, Penitensiar Xidmət rəisi, ədliyyə general-leytenantı Ceyhun Həsənovun yeni növ pomidor yetişdirməsindən söhbət açılırdı... 6

№30 (3228) 6 Sentyabr / 2022-ci il     Həftədə 1 dəfə çıxır     Qiymәti: 60 qəpik



# Qadınları hökmran olan tuareqlər

**Tuareqlər Əlcəzair, Mali, Nigeriya arasındakı geniş bölgədə məskən salan ən çox saylı, döyüşkən, eyni zamanda matriarxat xaldırlar. Burada qadın həyatda aparıcı qüvvə olduğu kimi, son söz də onundur.**

Qəbilədə bütün əsas işlərini zərif cinsdən olanlar görür, dünyaya gələn uşaqlar da ananın soyadını daşıyır. Ailə həyatı qurmağa gələndə nikah qızların istəyi əsasında olur. Daha bir maraqlı cəhət odur ki, oğlan tuareq qızla evlənmək istəyəndə mütləq ona sevgi şerini həsr etməlidir. Şer xanımın xoşuna gəlsə, oğlana ərə getməyə razılıq verir. Şersiz isə subaylığın daşını atmaq burada qeyri-mümkündür.

İndi bəziləri elə düşünərlər ki, tuareqli kişilər arvadan qorxaqdırlar. Əksinə, onlar bütün Afrikada ən cəsur, amansız, döyüşkən insan olaraq yaxşı ad qoymuşlar. Matriarxat isə bu xalq üçün ululardan qalma adətdir, ona əməl etməyi müqəddəslik sayırlar.



**Baxanda son illərdə insan qısa bir həyat sürür. Lakin bu 10 sirri bilib və ona dəqiq əməl etməklə ömrümüzü ən azı 120 ilə çatdıra bilərik. Uzunömürlüyün sirri ilk növbədə düzgün qidalanmaqdır. Az, tarazılaşdırılmış şəkildə yemək insanı sağlam saxlayır. Yəni hüceyrələr tez-tez yenilənir və orqanizm xəstəliklərə qarşı dözümlü olur.**

İkinci tələb də yenə yeməklə bağlıdır. Belə ki, qəbul edilən hər hansı ərzaq yaşa uyğun seçilməlidir. 30 yaşda ən çox qaraciyər və qoz, 40 yaşdan yuxarı isə betakarotin yemək məsləhətdir. 50 yaşda balıq yemək daha xeyirlidir. Çünki bu qida insanın ürək və qan damarlarını qoruyur.

**Daha 8 sirr haqında:**

**1.** Özünə uyğun iş tapmaq lazımdır. Bu da insanın cavan qalmasına şərait yaradır.

**2.** Sevgi və nəzakət uzunömürlü olmasına səbəb olur. Həftədə iki dəfə intim əlaqədə olmaq insanı yaşından 14 il cavan göstərir. Cinsi əlaqə zamanı orqanizmdən endorfin hormonu yaranır ki, buna da xoşbəxtlik hormonu deyirlər.

**3.** İnsanın hər şeyə gərək şəxsi fikri olsun. Həyatı dərk edən az hallarda depressiyaya düşür.

**4.** Hərəkət etmək, idmanla məşğul olmaq ömrü uzadır. Çünki hərəkət zamanı böyümə hormonları yaranır.

**5.** 17-18 dərəcəli sərin temperaturu olan otaqda yatmaq da xeyirlidir. Orqanizmdə maddələr mübadiləsi, eləcə yaş xüsusiyyətlərinin yaranması ətraf mühitin temperaturundan çox aşlıdır.

**6.** Hərdən ərköyün olmağa da dəyər. Bəzən həyat tərzinin əksinə gedib istədiyiniz şirniyyatı yemək olar. Xoşa gələn əşyanı almaq da insanda xoş təəssürat yaradır.

**7.** Qəzəbdən uzaq durun. Alimlər araşdırıblar ki, xərçəng xəstəliyinə tutulma halları ən çox qəzəbi daxilində saxlamaqla yaranır.

**8.** Krossvord həll etməklə, kollektiv oyunlar oynamaqla, xarici dil öyrənməklə, hesab aparmaqla beyni işə salmaq da insan ömrünü uzadır. Bununla zehni imkanların deqradasiya prosesi zəifləyir, ürəyin, qan dövranın və maddələr mübadiləsinin işi aktivləşir.

# Yorğunluğun "qənimi"



**Romada dünyada tayıbərabəri olmayan bir kafe fəaliyyət göstərir. 24 saat qapıları insanların üzünə açıq olan bu kafeyə ən çox isə bazarlıqdan yorulub əldən düşən xanımlar gəlirlər.**

Onlar burada gümrahlaşdırıcı içkilərdən başqa təravətləndirici iylər də sifarış verə bilirlər. Bir qayda olaraq həmişə qızılgül suyunun qarışığından hazırlanmış mayelərə daha çox tələbat hiss olunur. Çünki bu mayeni iyləyən dərhal yorğunluğu unudur, əhval-ruhiyyəsi gözəlləşir.



**Mütəxəssislər deyirlər ki, insanların hərəkət etməsini təmin edən yeganə orqanizm dineyn adlı zülaldır. Maraqlı cəhət ondan ibarətdir ki, bu zülal çox həssas və zərif bir orqanizmdir. Qaldı ki, təbiət ona milyonlarla qat böyük güc verib. Məhz bu güc hesabına o "motor" rolunu oynaya bilir.**

Hindistanlı alimlər dineyn orqanizminin ətraflı öyrənilməsi üçün müxtəlif araşdırmalar aparıb və tədqiqatlar keçiriblər. Aparılan təcrübələrdən birində canlının dineyn orqanizmine lazer şüaları yönəldilib. Mütəxəssislər müşahidə edib ki, dineyn lazer şüalarını təsirini uzaqlaşdırmağa çalışıb. Məlum olub ki, dineyn üzərinə düşən yükə bərabərdir. Bu dineynlər digər orqanizmlərə enerji ötürərək müqaviməti artırır və bununla da mühərrik funksiyasını yerinə yetirir. Alimlər həmçinin niyə məhz güclü orqanizm yox, bu cür zəif dineylərin belə çox enerji sərf etdiyini də araşdırıblar. Məlum olub ki, güclü dineynlər yüksək enerji axını ilə qarşılaşanda zəif dineynlər kimi enerji sərf edə bilmirlər. Alimlərin bu kəşfinin gələcəkdə süni əzələlərin inkişaf etdirilməsində istifadə olması gözlənilir.

**Bəşər övladı ailə həyatı qurub isti münasibətlər nəticəsində dünyaya yeni nəsillər gəlir. Eləcə bununla bağlı birgə mehriban yaşanan günlərin dünyanın gözəlliyinə yön alan başqa faydaları da çoxdur...**

İsti münasibətlərə pozitiv, hörmətlə yanaşılanda bunun insan sağlamlığına yaxşı mənada böyük təsiri olur. Bu da onunla bağlıdır ki, müntəzəm, xoş cinsi həyat ömrü 5 il uzadaraq ona rəngarənglik, eləcə parlaqlıq qatır. Cinsi əlaqə zamanı karbohidrat mübadiləsi aktivləşir, insanda bir çox hormonlar yaranır. Bunların əsasında endorfinlər, yeni xoşbəxtlik hormonları durur. Digər hormonlardan olan serotin kişi və qadında istirahət və rahatlıq hissini yaradır. Nəticədə bununla hər iki tərəfdə əhval-ruhiyə son dərəcə yaxşılaşır. Dediyim hal səs-küylü yerlərdə yaşayanlar üçün daha çox vacibdir.

Cinsi həyatın profilaktik və müalicəvi əhəmiyyəti onun ağrıkəsici keyfiyyətə malik oksitosin hormonun istehsalıdır. Bu hormon baş ağrıların qarşısını almaqda ən təsirli "dərman" sayıla bilər. Estroqenlər isə ən əsası qadına gözəlik gətirir, dərinin, saç və dırnaqların vəziyyəti-



ni yaxşılığa doğru dəyişdirir. Qadın öz görkəmindən zövq alır, həmişə şən, mehriban görünür.

Testosteron hormonu kişilərə daha cəsurluq və özünəinam hissi gətirir. Həm də qaydasında görülən intim münasibətin kişinin həyatını yarıda qoyan miokard infarktının qarşısını almaqda effektli köməyi dəyir. Aparılan təcrübələr onu da göstərir ki, qadınla kişi arasında isti münasibətin zehnin inkişafına xeyri çoxdur. Əlaqə zamanı beyin oksigenlə dolur, boz hüceyrələr aktivləşir, bu da öz növbəsində yaddaşa müsbət təsir edir, insanda öyrənmək həvəsini artırır.

Amma bütün deyilənlər gərək bir halallığa tapınsın. Buda ilahi bir sevgi ilə bir-birinə başlanmış ər ilə arvad arasında olan həqiqi, saf münasibətlə bağlıdır.

**Hazırladı: Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.
Qəzet 1991-ci ildən çıxır.

# Səlim Müslümov özünü təqsirli bildi, amma...

**Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun məhkəmə iclası davam etdirilib. Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə ittiham aktının digər hissəsi elan olunub.**

İttiham aktında bildirilib ki, təqsirləndirilən şəxs bir qrup şəxslə əlbir olaraq müxtəlif mənimsəmə faktı törədib.

Diqqətə çatdırılıb ki, təqsirləndirilən şəxs mənimsədiyi 27 milyon manatın 20 milyon manatını dövlət büdcəsinə qaytarıb. Daha sonra ifadə verən S.Müslümov özünü tam təqsirli bilib. O, mənimsəmə və israf etmə maddəsi ilə razı olmadığını deyib. Məhkəmənin növbəti iclası sentyabrın 12-nə təyin edilib.

Qeyd edək ki, S.Müslümov Azərbaycan əmək və əha-



linin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.

Toplanılan materiallar əsasında başlanılan cinayət işi üzrə S.Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin S.Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub.

Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. S.Müslümova Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israfetmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma), 313 (vəzifə saxtakarlığı) maddələri ilə təqsirli bilinir.

Daha sonra səhhətindəki problemlərlə bağlı sabiq nazir ev dustaqlığına buraxılıb.

## ELAN

**Şabran rayonu, Uzunboyada kəndində yaşayan Ağayeva Yeganə Əhmədağa qızına məxsus "Opel Astra" markalı 90-NA-402 dövlət nömrə qeydiyyat nişanlı avtomobilin ön nömrə nişanı düşərək itdiyi üçün etibarsız sayılır.**



# General Orucovun həbsinin şok detalları...

## Hərbçilərə işgəncə verən Bəkir Orucovu hansı cəza gözləyir?

**"Tərtər işi" ilə bağlı daha bir neçə nəfər həbs edilib. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.**

Qeyd olunub ki, Müdafiə Nazirliyinin Tərtər, Ağdam, Beyləqan rayonları istiqamətində yerləşən hərbi hissələrində xidmət edən bəzi hərbi qulluqçuların qanunazidd əməlləri ilə əlaqədar 2017-ci ilin may-iyun ayları ərzində həmin bölmələrin və digər hərbi hissələrin bir qrup hərbi qulluqçusunun cinayət-prosessual qanunvericiliyin tələblərinə zidd olaraq müvafiq səlahiyyətlərə malik olmadıqları halda qanunsuzluqlar törətməkdə şübhəli hesab etdikləri şəxsləri sorğulama prosesinə cəlb edib onlara fiziki və psixi zor tətbiq etməklə zərərçəkmiş şəxslərin ölümünə və digər ağır nəticələrə səbəb olan işgəncəyə, qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qoymaları faktları ilə əlaqədar cinayət işləri üzrə icraat təzələnmiş və Azərbaycan Respublikasının Baş prokurorunun birinci müavini tərəfindən prosessual rəhbərliyi həyata keçirilən istintaq qrupu tərəfindən 16 dekabr 2021-ci il tarixdən bütün istiqamətlər üzrə intensiv istintaq hərəkətləri aparılmaqdadır.

Ötən müddət ərzində işgəncəyə və digər qanunsuz əməllərə məruz qalmış 288 yeni şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınmaqla işin halları üzrə tam, hərtərəfli dindirilmiş, onların məhkəmə-tibbi ekspertizadan keçirilmələri təmin edilib. Beləliklə, işgəncə faktları üzrə əvvəlki istintaq zamanı zərərçəkmiş kimi tanınmış şəxslərlə birlikdə cinayət işləri üzrə hal-hazıradək ümumilikdə 405 zərərçəkmiş şəxs müəyyən edilib.

İş üzrə zərərçəkmiş şəxslərin, habelə qanunsuz əməllərə yol vermiş hərbi qulluqçuların müəyyən edilərək dindirilməsi, eləcə də cinayət təqibi üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində tədbirlər davam etdirilir.

2017-ci ilin may-iyun aylarında dövlətə xəyanət faktlarının araşdırılması ilə əlaqədar işgəncəyə, fiziki və ya psixi təsirə, digər qanunsuzluqlara məruz qalan, lakin zərərçəkmiş şəxs qismində tanınmayan şəxslərdən Baş Prokurorluğun "961" Çağrı Mərkəzi, 012-361-16-47 nömrəli telefon, habelə contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə əlaqə saxlamaqla dindirilmələrindən ötrü istintaqa gəlmələri xahiş olunur.

Əvvəlki istintaq zamanı işgəncələr nəticəsində ölməsi müəyyən edilmiş şəxslərdən əlavə Təmkin Nizamioğlunun da işgəncələrə məruz qalması nəticəsində aldığı xəsarətlərdən xəstəxanada vəfat etməsi barədə sübutlar əldə edildiyindən, onun meyiti ekshumasiya edilmiş və keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyi ilə də bu hal təsdiq olunmuşdur. Cinayət-prosessual qanunvericiliyə uyğun olaraq qeyd edilən şəxsin yaxın qohumunun zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınması təmin edilib.

Cinayət işinin istintaqı zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi, onları qanunsuz azadlıqdan məhrum etməsi və digər cinayət əməlləri ilə bağlı əsaslı şübhələr müəyyən edilən Orucov Bəkir Şirin oğlu və Əhmədov Ramil Bəşir oğlu Cinayət Məcəlləsinin 126.3 (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.3 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Həmçinin Məmmədov Rahib Ramazan oğlu Cinayət Məcəlləsinin 145.3, 293.2, 341.2.2 və 341.2.3-cü maddələri təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Eyni zamanda hazırda cəza çəkən Cümşüdov Qurban Qədim oğlu və Ağadadaşov Cavid Zahid oğlunun məhkum edildikləri hallardan başqa çoxsaylı zərərçəkmiş şəxslərə qarşı qanunsuz əməllərə yol vermələrinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 145.3, 293.2, 341.2.2, 341.2.3 və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara müvafiq ittiham elan edilib.

Beləliklə, cinayət işləri üzrə icraatın təzələnməsindən ötən müddət ərzində ümumilikdə 17 nəfər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, onlardan 12 nəfər barəsində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib, 1 nəfər barəsində axtarış elan olunub, 4 nəfər isə başqa cinayətlərə görə cəza çəkmə müəssisələrində cəza çəkdikləri nəzərə alınmaqla barələrində qətimkan tədbiri seçilməyib.

Əlavə istintaq aparılması üçün prokurorluğun protesti əsasında məhkəmələr tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılan əvvəllər dövlətə xəyanət ittihamı ilə barələrində cinayət təqibi aparılmış, lakin sonradan bu hal öz təsdiqini tapmamaqla, hərbi xidmət əleyhinə və digər cinayətlərə görə məhkum olunmuş 26 şəxs barəsində cinayət təqibi ilə bağlı bütün hallar hərtərəfli, tam və obyektiv araşdırılaraq, onlardan 19 şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslarla, digər 7 şəxs barəsində olan təqibə müəyyən epizodlar üzrə bəraətverici, bir qisim epizodlar üzrə isə bəraətverici olmayan əsaslarla xitam verilməsi haqqında qərarlar qəbul edilib.

Həmçinin, Hüseynov Mehman Telman oğlu və Ağazadə Elxan Kəmaləddin oğlu barəsində dövlətə xəyanət ittihamı ilə aparılmış cinayət təqibinə öldüklərinə görə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qəbul edilmiş 19 dekabr 2017-ci il tarixli qərarlar qanunsuz və əsassız olduğundan Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən ləğv edilmiş və onlarla əlaqədar bütün halların tam, hərtərəfli və obyektiv araşdırılmaqla yekun qərarların qəbul edilməsi təmin ediləcəkdir.

Bununla yanaşı, aparılan istintaq zamanı əldə edilmiş mötəbər sübutlar əsasında əvvəllər istintaqı aparılmaqla məhkəməyə göndərilmiş 3 cinayət işi üzrə dövlətə xəyanət və digər maddələrlə təqsirli bilinərək müxtəlif müddətlərdə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş ümumilikdə 19 şəxs barəsində Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən yeni açılmış hallarla əlaqədar həmin şəxslər barəsində olan məhkəmə qərarlarına yenidən baxılması üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumuna müraciət edilib.

İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Cinayət işinin istintaqı zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi, onları qanunsuz azadlıqdan məhrum etməsi və digər cinayət əməlləri ilə bağlı əsaslı şübhələr müəyyən edilən Orucov Bəkir Şirin oğlu və Əhmədov Ramil Bəşir oğlu Cinayət Məcəlləsinin 126.3 (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.3 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

**RƏŞAD**

Bəli, xəbər yayıldı ki, hansısa vəzifəli əbləh iş yerində tabeliyində olan qadınlarla intim əlaqədə olub və baş verənləri də lentə çəkib. Çəkmək bəcəhənnəm, videoları yayıb, hamını rüsvay edib, həm qadınları, həm nazirliyini. Bax, buna varam!

# Məni nifrət yox, ikrah hissi danışdırır...

*“Daxili düşmənlər ona görə güclüdürlər ki, biz diz üstündəyik”*

**Mirabo**
*(XVIII əsr Fransanın ictimai xadimi)*

Xalqın gül balaları şəhadətə çatanda ölkəni talan və tarac edən amansız bir zümrə cəzasız qalırsa, psevdovətənpərvər kliplər, haray-həşirli konsertlərlə camaatın başını qatmağa cəhd edirlərsə, deməli, bu işin axırı fənadır...



**Firuz HAŞIMOV**





Növbəti dəfə də məni sarsıdan vaqiə ilə üzləşdim, nə kütləvi qəzəb kükrədi, nə də çoxdan plankton səviyyəsinə düşmüş ziyalı zümrəsi dilləndi. Son dövrlərdə elə binamus əməllərlə üzləşmiş, elə haramzadalıqlar görmüşük ki, daha heç nədən təəccüblənmirik. Qulaqlarımız dolub, üzlərimiz də, o məsələ. Yəqin nə demək istədiyimi başa düşdünüz.

**Ömrümün çox hissəsi sovetlər dövründə keçib, çox kasıb ailədə böyümüşəm, ərsəyə çatanda da çörəyim daşdan çıxıb. Kommunist diktaturasının, onun bütün əli qələmli, qələmsiz ideoloq və məddahlarının qatı düşməni olmuşam, amma müstəqillik illərində rast gəldiyim riyakarlıq, harınlıq yuxuma da girməyib. Öz özümüzü inandırmışdıq ki, qanlar bahasına qazanılmış müstəqillik illərində insanlar, ələlxüsus, azərbaycanlılar kürreyi-ərzin əşrəfi olacaq, bütün səlib dünyası heyranlıqla bizə tamaşa edəcək.**

Səlib dünyası yox, biz öz-özümüzə tamaşa etdik, bir hissəmiz sarsıldı, bir hissəmiz də həmişə olduğu kimi özünü vurdu arsızlığa. Dərd burdadır ki, özünü arsızlığa vuran çoxluqdadır. Yırtıcıya dönmüş hakim təbəqə, dini də, imanı da çoxdan pula satmış, heç kimdən qorxmayan, çəkinməyən imtiyazlı iri çaplı məmurlar məhz bu çoxluğun kütlüyündən sui-istifadə edərək ölkədə ağalıq edirlər. Onlar güclü təbliğatla artıq bu çoxluğu inandırıblar ki, o, heç bir qələt edə bilməz. Yağ-bal içində yaşayan hüquq-mühafizə orqanları bir “himə” bənddirlər, cınqırını çıxaranı bir göz qırpımında yox edərlər. Ştatlı məddahlar da, maşallah, dil boğaza qoymurlar, telekanallar onların ixtiyarına verilib.

Şəhid ailələrinə, ehtiyac içində olan insanlara verilən təzə mənzilləri göstərirlər, boş divarlar, adi mebel, göz oxşayan heç nə yoxdur. Bunu başa düşdük... Amma nə olardı, harın biqeyrətlərin villa və imarətlərinin cah-cəlallı salonlarını, eyş-işrət otaqlarını da göstərəydilər. Axı bütün bu cah-calal, şahanə yaşayış, kəfənləri artıq saralmış gül kimi oğulların canları bahasına əldə edilib. Bu barədə bir məmur fikirləşib?

Kim fikirləşəcək? Onu görürsən ki, hansısa telekanalda beş-altı nəfər nadirəlvücud əyləşib müstəmləkə ədəbiyyatının qabaqda gedənlərini tərifləyirlər. Müxtəlif illərdə repressiyaya məruz qalmış zavallıları çıxmaq şərtilə, qalanları yaxşı gün görmüş, işləri həmişə düz gətirmiş Sovet şair və yazıçılarıdır. Mən bəndeyi-həqir indi müxtəlif epitetlərə layiq görülənlərin demək olar ki, əksəriyyətini şəxsən tanıyırdım.

Yeri düşəndə söhbətlərim də olmuşdu, əsərlərini də tamam-kamal oxumuşam. Bir neçəsini çıxmaq şərtilə heç birisinə nə rəğbətim olub, nə hörmətim. Bunların nəinki özlərinin, hətta üzəngi tutanlarının da vətənpərvərliyi “Bizim çil-çil toyuğun çığırtmasının qabağında Avropa qələt edə bilmir!” kimi axmaq sözlərdən uzaq getmirdi. Özü də maraqlıdır ki, özlərini ədəbiyyat aləminin əshabi-girami hesab edən bu ağalar, xanımlar bircə dəfə də olsun Əli Kərim kimi gözəl şairin pulsuz-parasız, işsiz qalmasından, boğaza yığılmış Sərdar Əsədin intiharının səbəblərindən, Xəlil Rzanın neçə il qovarağa götürülməsindən və digər vaqiələrdən danışmırlar.

**Şəxsən mən neçə-neçə istedadlı qələm sahibi tanıyırdım ki, illərlə bir kitabını plana sala bilmirdi. Ya Mərkəzi Komitə buna “dobro” verməli idi, ya da Yazıçılar İttifaqının bir knyazı əl uzatmalı idi. Əyilməyənlər, yaltaqlığı bacarmayanlar qalırdılar iki əl, bir baş. Hərdən ayda-ildə hansısa qəzetdə, jnurnalda qısa bir-iki yazısı çıxsaydı, buna da şükür.**

**Vacib ricət**

Rus hakimiyyəti dövründə Cavanşir uyezdi indiki Füzuli, Ağcabədi və bir neçə rayonu əhatə edirdi. Əlqərəz, Şəfi bəy Fətəlibəyov adlı bir pristav (bizim rayon polis rəisi kimi bir şey) illər boyu orada müsəlmanlara qan qusdururmuş. Quberniyanın rus rəislərinə arxalanan bu manqurtun zülmü ərşə dayanarmış, nə kəsilən başa sorğusual varmış, nə də rəiyyətin ah-naləsinə qulaq asan. Özü də bu rəzalət bir-iki il yox, çoxdan davam edirmiş. Nəhayət “İrşad” qəzetinin 1906-cı il 10 aprel tarixli 80-ci sayında Üzeyir bəyin bu manqurta məktubu çap olunur. Bu adi məktub yox, azğının sifətinə çəkilmiş sillə idi. Bəzi fraqmentləri burada verirəm, diqqətlə oxuyun: “Hökumətə çox böyük qulluqlar edibsiniz, sizin qamçı altında ölmüş müsəlmanların, odunuzla yanmış evlərin, hökmünüzlə darmadağın edilmiş mal və mülklərin, “həyanızla” bihəya olmuş arvadların, şiri-yayanlara mənsub nərənizlə bağrı yarılmış uşaqların ədədini götürüb mülahizə etsən, görərsən ki, neçə-neçə qəbiristanlıq məhz sayənizdə yaranıb”.

“Öldürün müsəlmanları, dağıdın ev-eşiklərini, əlinizdən gələn zülm və sitəmi onların haqqında əsirgəməyin. Belə bir gün olar ki, hökumət sizi naçalnikliyə layıq bilər!”. Çox tanış mənzərədir, eləmi? Amma, daha Üzeyir bəy kimi kişi yoxdur ki, indiki arxalı-köməkli harının üzünə tüpürsün.

...Milyardlar oğurlanır, kasıbkusubun nifrət dolu baxışları altında villalar tikilir, gənclər arasında narkomaniya təhlükəli həddən də keçib, mən hələ əxlaqsızlığın artıq həyat tərzinə dönməsindən danışmıram. Hələ indiyə kimi bir dəfə görmədik ki, tədbirlərdə Prezidentin yanında irişə-irişə kəmərbəstə qulam kimi duran titullu, iqtidardan hər cürə diqqət və qayğı görənlərin biri kişiliyə gəlib bir vəzifəli quldurun üzərinə getsin. Təsiri altında saxladığı yazarların canına, qanına mütilik viruslarını yoluxdura bilmiş Anarda o cəsarət harada idi ki, durub hansısa prokuroru, azğın naziri divara qısnayaydı. Oğul-uşağın sabahı təmin olunub, ev-eşik var, puldan korluq yoxdur. İş bərkə düşəndə həmişəki kimi Türkiyəyə sığınacaq, əsərlərini də tərifləyib dağ başına çıxaran lakey xislətli “tənqidçilər”də nə qədər istəsən.

**Ruspərəstliyi heç kimə sirr olmayan Çingiz Abdullayevi dara da çəksələr heç bir vaxt Ramiz Mehdiyevin, əlaltısı Əli Həsənovun üzlərinə ağ olmayacaqdı. Məram bir, məzhəb bir, niyyət bir...**

**...Elə bunları yazırdım ki, Ramiz Mehdiyevin bir dəbdəbəli malikanəni satışa çıxarmaq istədiyini qəzetdən öyrəndim. Heç demə bu malikanəni Ramiz Mehdiyevə Ziya Məmmədov peşkeş edibmiş. Dağılasan belə quruluş, bir yırtıcı başqa yırtıcıya imarət bağışlayır. Bu otuz il ərzində nələr görmədik?**

Bəzən fikirləşirəm, on illər boyu dilənçi qonorarının müqabilində, ağına-bozuna baxmadan bütün müxalifəti yıxıb-sürüməyim nə üçün idi? Bu alçaqların hakimiyyəti üçün? Hər məqaləmlə özümə düşmən qazanırdım, mülk və sərvətinin sayı bilinməyən Elmira Axundova kimi fırıldaqçı irəli aparıldı, fəxri adlara layiq görüldü. Məni nifrət yox, ikrah hissi danışdırır, xalqın gül balaları şəhadətə çatanda ölkəni talan və tarac edən amansız bir zümrə cəzasız qalırsa, psevdovətənpərvər klip, haray-həşirli konsertlərlə camaatın başını qatmağa cəhd edirlərsə, deməli, bu işin axırı fənadır. Dünənləri Qarabağ əldən gedəndə mərdi-mərdanə fitnəkarların üzərinə gedib onları ifşa eləməkdən qorxanlar indi Prezidentin məiyyətindədirlər. Hünərin var yaxınlaş söz de.

**...Bizim şanlı-şövkətli qələm ərbabının qurultayı olacaq. Hərənin ağzından bir avaz gəlir, görəsən birliyin sədri kim olacaq. Mən isə deyirəm, Prezident sarayından kimi göstərsələr, o da sədr təyin olunacaq, vəssalam. Anar ağadan yaxşısı yoxdur. Əvvələn, bu kişi, Leninə, rus xalqına məhəbbət və sədaqətini əsərləri ilə sübut etmiş Rəsul Rzanın oğludur. Saniyən, Anar müstəqil danışmaq, mərdanə söz demək qabiliyyətini itirmiş güruhun dilini çoxdan tapıb. Salisən, özlərini şair və yazıçı sayanlar yaxşı bilirlər ki, adlarının əvvəlinə bir “xalq” sözünü yapışdırmaq, hər cürə imkan, imtiyaz qazanmaq üçün Anar ən yaxşı vasitədir. Bütün sərdar və valilərlə dil tapmağı bacaran Anar ağa Prezident Aparatını təmin edir, “fərmani-hümayun” olmadan, o bir dəfə də olsun cürət edib “altı-beş vurmayıb”. O, barmağı ilə kimi göstərsə, onun da əyninə orta əsrlərdə olan kimi güləbətinli zərrin xələt geyindiriləcək.**

Bu villa söhbəti yaramın qaysağını qopardı. İstər Abşeronda, istərsə də ölkənin digər yerlərində ucaldılmış möhtəşəm imarətlər barədə az-maz məlumatım vardı. Mən illər boyu Ramiz Mehdiyev - Əli Həsənov tandeminin makulaturaya döndərdikləri qəzetlərdə narazı insanların üzərinə ona görə getməmişdim ki, vampir sürüsü heç nədən, heç kimdən çəkinmədən ölkəni talan və tarac eləsin. Dilənçi qonorarının müqabilində gecə-gündüz işləyib mənasız yerə özümə hər yerdə düşmən qazanmağım onun üçün imiş ki, cah-cəlallı saraylarda, xaricdə bahalı otellərdə yırtıcılar kefə baxsınlar. Qəzəbdən, nifrət hissindən əsirəm, gül kimi oğullar şəhadətə çatdılar, ömürlük şikəst olanların, yaralıların dəqiq sayı bilinmir. Heç bir yerdə bir vampir, bir rüşvətxor, bir siyasi yaramazın övladının, əzizinin başından bir tük də əskik olmadı. Səni qəhr olasan belə quruluş!

...Sovet hakimiyyəti illərində dəmir yolu poliklinikasında bizləri gülərüzlü həkimlər qapıda qarşılardılar. ...Sabah həkimə getməliym, ciblərimi eşələyirəm pul çatmayacaq... Özəllər bəcəhənnəm, hökumət poliklinikalarında da zavallı həkimlər əllərimizə baxırlar... Qurana, Allaha and olsun ki, xəcalətdən heç yerə getmək istəmirəm, bu quruluşun sayəsində mənim kimi bimarlar ölümü səadət kimi gözləyirlər.

***P.S.** Əlaltılarının köməyilə məni birdəfəlik susdurmaqdan əvvəl, yaxşı olardı ki, Ramiz Mehdiyev Elmira Axundovanı, Çingiz Abdullayevi və digər Moskva aşiqlərini başına yığıb, üzərində “Bərabərlik sözünü tarixlərə nəqş edən, əziz xilaskarımız rus xalqına eşq olsun!” sözləri yazılmış plakarı götürüb birbaş Rusiya səfarətxanasının qapısına gedib xahiş-minnət eləsin. Bəlkə Qarabağdan rədd olsunlar. Soruşula bilər, bəs o plakatın üzərindəki sözlər hansı qeyrətli şairindir? Bu sualın cavabını məşhur filoloq Nizami Cəfərov versə yaxşıdır.*

Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi vəziyyətə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmtindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə Rusiya-Ukrayna cəbhəsindəki son durum ətrafında müzakirələr aparıb. Müzakirələrdə Rusiyanın Ukraynaya qarşı davam edən aqressiyasının dünyanın təhlükəsizliyi üçün ciddi təhdid yaratdığı, xüsusilə bu təhdidin iqtisadi sferada özünü daha qabarıq göstərdiyi, xalqlar və dövlətlər arasındakı münasibətləri gərginləşdirdiyini nəzərə alınaraq, təcili olaraq Rusiya-Ukrayna arasında davam edən müharibənin dayandırılmasının, problemlərin sülh yolu ilə həll olunmasının, Rusiyanın işğal etdiyi Ukrayna ərazilərdən dərhal çıxmasının, Ukraynanın isə Rusiyanın özünün təhlükəsizliyi ilə bağlı qayğılarına cavab verən öhdəlikləri öz üzərinə götürməsinin vacibliyi qeyd edilib.

# ADP Brüssel görüşünü təqdir edir

## Partiya bu görüşün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasına, o cümlədən Azərbaycanın da milli maraqlarına cavab verdiyini bildirib...





ADP İdarə Heyəti Qazaxstan rəhbərliyi tərəfindən öz ölkəsində həyata keçiriləcək köklü islahatlarla - birdəfəlik 7 illik prezidentlik müddətinin tətbiqini, "Milli Fondun" illik investisiya gəlirlərinin 50 faizinin qabaqcadan götürmək hüququ olmadan 18 yaşına çatanadək uşaqların xüsusi əmanət hesablarına köçürüləcəyini təqdir edib və Azərbaycan hökumətini də Qazaxstan nümunəsindən bəhrələnməyə çağırıb...

İdarə Heyəti 31 avqust tarixində Avropa İttifaqı Şurası prezidenti Ş.Mişelin təşəbbüsü ilə Azərbaycan və Ermənistan dövlət başçıları arasında Brüsseldə baş tutan növbəti görüş ətrafında da fikir mübadiləsi aparıb. İdarə Heyəti Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və yekun olaraq Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması istiqamətində Avropa İttifaqı müstəvisində aparılan danışıqları təqdir edib, bu prosesin Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasına, o cümlədən Azərbaycanın da milli maraqlarına cavab verdiyini qeyd edib.

İdarə Heyəti sonuncu Brüssel görüşündən sonra Ermənistanla sərhəddə Azərbaycan hərbçilərinin mövqelərinin erməni silahlı birləşmələri tərəfindən atəşə tutulması, Rusiya "sülməramlıları"nın özbaşına olaraq postlarının artırması və ermənilər tərəfindən təxribat xarakterli addımların atılması faktlarına diqqət çəkib. İdarə Heyəti baş verənləri Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qəsd kimi dəyərləndirib və bu hadisələrdə birbaşa Rusiyanı ittiham edib. Qeyd edilib ki, Rusiya bu hərəkətlərlə Cənubi Qafqazda söz sahibinin olduğunu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi güdür. İdarə Heyəti qeyd edib ki, rus hərbi birləşmələrinin bu hərəklətləri mövcud vəziyyəti daha gərginləşdirir, bu baxımdan vaxt itirmədən Azərbaycan ərazilərini tərk etməlidir. Eyni zamanda Azərbaycan-Ermənistan arasında münasibətlərin yoluna qoyulmasına başlıca əngəlin Rusiya olduğunu bildirən İdarə Heyəti beynəlxalq ictimaiyyəti Rusiyanın bu məsələdən təcrid edilməsi istiqamətində səylərini artırmağa çağırıb. İdarə Heyəti Azərbaycan hökumətini isə Xankəndi iqtidisadi zonasında erməni separatçıları tərəfindən həyata keçirilən təxribatların qarşısının alınması və həmin bölgədə suverenliyin tam bərpa olunması istiqamətində daha ciddi addımlar atmağa çağırıb.

İdarə Heyəti ABŞ və Qərb dairələrinin davamlı olaraq Ermənistana beynəlxalq hüquq normalarına zidd olaraq verdiyi dəstək ətrafında da müzakirə aparıb, bu siyasətin Rusiyanın birbaşa Cənubi Qafqazda möhkəmlənməsinə xidmət etdiyini qeyd edərək, adı çəkilən dairələri bu siyasətdən çəkinməyə çağırıb.

İdarə Heyəti Qazaxstan rəhbərliyi tərəfindən öz ölkəsində həyata keçiriləcək köklü islahatlarla - birdəfəlik 7 illik prezidentlik müddətinin tətbiqini, "Milli Fondun" illik investisiya gəlirlərinin 50 faizinin qabaqcadan götürmək hüququ olmadan 18 yaşına çatanadək uşaqların xüsusi əmanət hesablarına köçürüləcəyini təqdir edib və Azərbaycan hökumətini də Qazaxstan nümunəsindən bəhrələnməyə çağırıb.

İdarə Heyəti Qazaxstan rəhbərliyi tərəfindən öz ölkəsində həyata keçiriləcək köklü islahatlarla - birdəfəlik 7 illik prezidentlik müddətinin tətbiqini, "Milli Fondun" illik investisiya gəlirlərinin 50 faizinin qabaqcadan götürmək hüququ olmadan 18 yaşına çatanadək uşaqların xüsusi əmanət hesablarına köçürüləcəyini təqdir edib və Azərbaycan hökumətini də Qazaxstan nümunəsindən bəhrələnməyə çağırıb.

İdarə Heyəti həbsdə olan VİP sədri Əli Əliyevin son günlər ailə üzvləri və vəkili ilə görüşməsinə imkan verilməməsindən, ona qarşı "məhbus yoldaşına xəsarət yetirmək" adı altında yeni bir qondarma cinayət işinin açılmasına hazırlıq getməsindən dərin narahatçılığını ifadə edib, baş verənləri Əli Əliyevə qarşı hakimiyyətin qərəzli münasibəti kimi dəyərləndirib. İdarə Heyəti hakimiyyəti ölkədəki daxili vəziyyəti gərginləşdirməyə xidmət edən VİP sədri Əli Əliyevə qarşı qeyri-qanuni hərəkətlərdən çəkinməyə, onun azadlığa çıxması istiqamətində addımlar atmağa çağırıb.

İdarə Heyəti son zamanlar Türkiyə-Yunanıstan arasında yaşanan gərginliyi də müzakirə edib. Müzakirə iştirakçıları baş verənləri bəzi beynəlxalq qüvvələr tərəfindən yaradılan süni gərginlik və düşmənçilik kimi dəyərləndirib, bu hadisələri bütün bölgədə sülhü və əmin-amanlığı təhdid etdiyini bildirib. Eyni zamanda baş verənləri Azərbaycan xaqına və dövlətinə qarşı atılan addım kimi dəyərləndirən müzakirə iştirakçıları Azərbaycan hökumətini bu məsələdə qardaş Türkiyəyə gərəkən siyasi, diplomatik və hərbi yardımını əsirgəməməyə çağırıb.

İdarə Heyəti ölkədəki mövcud olan ağır sosial-iqtisadi vəziyyətlə bağlı müzakirələr aparıb, işsizliyin, infilyasiyanın, gündəlik tələbat mallarının qiymətlərinin artmasının, keyfiyyətinin isə aşağı düşməsinin səbəbləri kimi ölkədə qüsurlu idarəçiliyin nəticəsi kimi dəyərləndirib, hakimiyyəti ölkə vətəndaşlarının sisial-iqtisadi maraqlarının qorunması istiqamətində konkret addımlar atmağa çağırıb.

İdarə Heyəti işğaldan azad edilmiş ərazilərdə yaşamış vətəndaşların mülkiyyət hüquqlarının pozulması ilə bağlı cəmiyyətdə yaranan narahatçılıqlara da diqqət çəkib, həmin ərazilərdə yaşamış vətəndaşların sahibi olduğu torpaqlarda dövlət əhəmiyyətli obyektlərin tikintisi zamanı vətəndaşlara kompensasiyanın ödənlməsinin zəruriliyini bildirib.

İdarə Heyəti eyni zamanda bu günə qədər bir çox vətəndaşlarda özəlləşdirmə çəklərinin realizə olunmadan qalmasına diqqət çəkib, hökuməti özəlləşdirmədən kənarda qalan vətəndaşların pozulmuş hüquqlarının bərpa edilməsi istiqamətində tədbirlər görməyə çağırıb.

**Hazırladı: RƏŞAD**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Erməni separatçıların Qarabağa qanunsuz səfərləri...



Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə keçirilən görüşündən sonra Xankəndi şəhərinə qanunsuz səfər edib. Heç şübhəsiz ki, Qriqoryanın bu cür önəmli məqamda baş tutan səfəri danışıqlar prosesinə mənfi təsir edə, hətta tərəflər arasında gərginliyi artıra bilər. Məhz elə buna görə də rəsmi Bakı sözügedən olaya sərt etirazını bildirib. Belə ki, Qriqoryanın Xankəndi şəhərinə qanunsuz səfər etməsini Ermənistan tərəfinin növbəti təxribatı kimi dəyərləndirən Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda deyilir ki, bu, iki dövlət arasında münasibətlərin normallaşması cəhdlərinə xələl gətirir.

Həmçinin, bildirilib ki, Azərbaycan və Ermənistan liderləri arasında Brüsseldə baş tutan növbəti görüşdən dərhal sonra Ermənistan rəsmisi tərəfindən məqsədyönlü şəkildə atılan bu qanunsuz addım, görüş zamanı əldə edilmiş razılıqlara kölgə salmaqla yanaşı, Ermənistan tərəfinin normallaşma prosesində səmimi olmadığını açıq nümayiş etdirir: "Bu qanunsuz səfər, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmadığı, suverenlik və dövlət sərhədləri prinsiplərini qəbul etdiyinə dair bəyanatlarının səmimiyyətdən uzaq olduğunu göstərir. Bu, həmçinin rəsmi İrəvan tərəfindən beynəlxalq vasitəçilərin səylərinə hörmətsizlikdir".

Məsələnin maraqlı tərəfi ondadır ki, Armen Qriqoryanın qeyd olunan qanunsuz səfəri ilə təxminən, eyni vaxtda Xankəndidəki separatçıların rəhbərlərindən biri olan David Babayan ABŞ-a səfər edib. Amerika Erməniləri Milli Komitəsi bununla bağlı bəyan edib ki, David Babayan sentyabrın 19-da Vaşinqtonda ABŞ siyasətçiləri ilə məsləhətləşmələr aparacaq, eləcə də Kapitolidə çıxış edəcək. Görünən odur ki, ABŞ bu kimi addımlarla artıq yararsız qurum olduğu təsdiqlənmiş ATƏT-in Minsk qrupunu yenidən aktivləşdirməyə və danışıqlar prosesinə cəlb etməyə çalışır. Ermənistanın müdafiə naziri Suren Papikyanın rəhbərlik etdiyi nümayəndə heyətinin sentyabrın 5-də ABŞ-a işgüzar səfərə getməsi də bunu təsdiq edir desək, yəqin ki, yanılmarıq.



Məhəmməd Əsədullazadə: "Hazırda Rusiyadan növbəti dəfə Qarabağda yeni problem körükləmək cəhdləri müşahidə edilir"



Zaur Məmmədov: "Separatçıların "xarici işlər naziri" David Babayanın ABŞ-a səfəri və Konqresdə çıxışı Demokratların əsl simasının göstəricisidir"

### "Qarabağdakı separatçıların "xarici işlər naziri" David Babayanın Konqresdə "görüşləri" ermənilərin əleyhinə işləyəcək"

Beləliklə, mövzuya təxminən, eyni mövqedən yanaşan Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə "Hürriyyət"ə açıqlamasında bildirib ki, ermənipərəst konqresmenlər tərəfindən Vaşinqtona dəvət alan Qarabağdakı separatçıların "xarici işlər naziri" David Babayanın Konqresdə "görüşləri" ermənilərin əleyhinə işləyəcək: "Separatçılar 20 ildən artıq ki, Vaşinqtona müxtəlif tədbirlərə dəvət alırlar və bu səfərlərin təşkilini Amerika Erməni Assambleyası həyata keçirir. Əgər 20 il ərzində nəyisə dəyişə bilmədilərsə, məğlub kimi bundan sonra heç nə edə bilməyəcəklər. Bu kimi səfərlər onların Qarabağdan tam çıxarılması ilə nəticələnəcək. Azərbaycanın yüksək standartlarla çəkdiyi yolla silah və hərbi yardımlar almaqla separatçılığı davam etdirmək onlar üçün baha başa gəlməlidir. Bu yol Ermənistanın növbəti təxribatlarına və separatçıların fəaliyyətinə xidmət etməməlidir. Prezident İlham Əliyev bu kimi avantüraların qarşısını alacaq".

Proseslərin Ermənistanın və Qarabağdakı separatçıların əleyhinə işlədiyini vurğulayan Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri qeyd edib ki, onlar dörd tərəfdən ordumuzun mühasirəsi və müşahidəsi altında ya Azərbaycana tabe olacaqlar, ya çıxıb gedəcəklər: "Əks halda, onların bu torpaqlarda yaşamaq haqları tanınmayacaq. Ermənistan rəhbərliyinin irəli sürdüyü "status" məsələsinə gəldikdə, bu məsələ Avropa İttifaqının vasitəçiliyinin gündəliyində deyil. Ermənistan hakimiyyəti sülh danışıqlarında maraqlı olsa da, cəmiyyət Azərbaycanla sülhə hazır deyil. Ona görə də bəzən Nikol Paşinyan revanşist erməni cəmiyyətinin "arzularını" ifadə edir. Yeri gəlmişkən, onu da nəzərinizə çatdırım ki, hazırda Rusiyadan növbəti dəfə Qarabağda yeni problem körükləmək cəhdləri müşahidə edilir. Belə ki, rusiyalı erməni milyarder Ruben Vardanyanın Qarabağda məskunlaşması, məhz Kremlin yeni avantürası kimi dəyərləndirilməlidir. Burada əsas məqsəd sülh prosesini pozmaq və gərginliyi gündəmdə saxlamaqdan ibarətdir. Lakin bu kimi addımlar belə, Rusiyanın planlarının reallaşmasına gətirib çıxarmayacaq".

### "Azərbaycan artıq ABŞ-ın vasitəçiliyini qəbul etməməli, prosesi Brüsselin iştirakı ilə aparmalıdır"

Milli Cəbhə Partiyasının sədr müavini onu da əlavə edib ki, ABŞ Azərbaycan və Ermənistan arasında ədalətli vasitəçi ola bilməz: "30 il ərzində Ermənistanla Azərbaycan arasında münaqişənin həllində diplomatik danışıqlar ona görə müsbət nəticə vermədi ki, hər üç həmsədr erməni mövqeyindən çıxış edirdi. Odur ki, Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında vasitəçiliyi ən uğurlu format sayıla bilər. Çünki Brüssel formatdan həm Bakı, həm də İrəvan razıdır. Azərbaycan və Ermənistan arasında Rusiya və ABŞ-ın ayrı-ayrı formada vasitəçiliyi sülhə deyil, problemin qalmasına xidmət edir. Xüsusilə, ABŞ-ın 30 il ərzində mövqeyi demək olar ki, münaqişənin həllinə heç bir müsbət töhfə vermədi. Hazırda Brüsselin real vasitəçiliyinin davam etdiyi bir prosesdə Vaşinqtonun Minsk qrupunun fəaliyyətini qabartması erməni lobbisinin təsirinin nəticəsidir. Odur ki, ABŞ Azərbaycanla Ermənistan arasında real sülhə töhfə verə bilməz və Vaşinqtonun vasitəçilik missiyası yalnız münaqişənin körüklənməsinə xidmət edə bilər. Çünki ABŞ siyasətində erməni lobbisinin güclü təsiri var. Bu siyasət 30 il ərzində dəyişməyibsə, bundan sonra da dəyişməyəcək. Bu səbəbdən də Azərbaycan artıq ABŞ-ın vasitəçiliyini qəbul etməməli, prosesi Brüsselin iştirakı ilə aparmalıdır".

### "Ümid edək ki, payızda ara parlament seçkilərində respublikaçılar revanş alarlar, əks təqdirdə, demokratların Qafqazdakı sülhə xələl gətirmə ehtimalı kifayət qədərdir"

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov isə bu qənaətdədir ki, Qarabağdakı separatçıların "xarici işlər naziri" David Babayanın ABŞ-a səfəri və Konqresdə çıxışı Demokratların əsl simasının göstəricisidir: "Separatçı qurumun xarici işlər naziri David Babayanın Konqresə ayaq basması ABŞ-ın Donbas Xalq Respublikası, Luqansk Xalq Respublikası, Abxaziya Respublikası, Osetiya, Dnestryanı kimi separatçılarla Qarabağdakı separatçılara eyni yanaşmanın olmaması deməkdir. Təəcüblənmirik, çünki 30 ildir ki, bu demokratlar qrupu Azərbaycana qarşı ən çirkin qərarların başında durublar. 1980-ci illərin sonunda Bayden, Kerri, Pelosi və qrupun digər üzvləri... Təsəvvür edin, düşmənləri olan SSRİ xarici işlər nazirliyinə, Şevarnadzeyə və digərlərinə məktublar yazaraq, ermənilərin Azərbaycan SSR-nin tərkibində yaşaya bilmədiklərinin, onlara qayğının artırılmasının vacibliyinə toxunur, Qarabağ ermənilərinin Azərbaycanın tərkibindən çıxarılaraq müstəqil respublika olmasının vacibliyini qeyd edirdilər. Bu, həyasızlığın ən bariz nümunəsi idi. İndi, 44 günlük müharibədən sonra Qarabağın müstəqil deyil, məhz Azərbaycanın tərkib hissəsi olması ilə necə barışa bilərlər? Axı, 30 il əvvəl elə özləri "Qarabağ Azərbaycanın tərkibində qala bilməz" şüarları ilə aləmə car yayırdılar. Ümid edək ki, payızda ara parlament seçkilərində respublikaçılar revanş alarlar. Əks təqdirdə, bu qrupun Qafqazdakı sülhə xələl gətirmə ehtimalı kifayət qədərdir".

**Vazeh BƏHRAMOĞLU**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

"Hürriyyət"in ötən saylarının birində "Ceyhun Həsənovun yeni sort pomidoru ölkədə böyük marağa səbəb olub" sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini, Penitensiar Xidmət rəisi, ədliyyə general-leytenantı Ceyhun Həsənovun yeni növ pomidor yetişdirməsindən söhbət açılırdı. Qeyd olunurdu ki, sosial şəbəkələrdə "Penitensiar pomidoru", "General pomidoru" adı verilən bu tərəvəz növü çox sayda insanın diqqətini cəlb edib. Belə ki, vətəndaşlar general-leytenantın yetişdirdiyi pomidorun dadına baxmaq arzusunda olduğunu bildiriblər...




# "Bilmirsiniz, bura türmələrin rəisi Ceyhun müəllimin obyektidir!"

## General-leytenantın restoranında "Penitensiar pomidoru" yeməyin bir başqa ləzzəti varmış...

Etiraf edək ki, yazı müəllifi olaraq həmin pomidorun dadına baxmaq istəyi bizim də içimizdən keçməmiş deyildi. Amma eşidəndə ki, bu pomidorların böyük hissəsi ölkədən kənarda satılır, boşalmış, yarızay məhsullar isə Penitensiar Xidmətin tabeçiliyində olan həbsxanalara göndərilir, nəfsimizi boğmaqdan başqa çarəmiz qalmadı. Çünki karantin rejiminin davam etdiyi, quru sərhədlərin bağlı olduğu indiki dönəmdə ölkədən kənara çıxmağın çətinlikləri hər kəsə bəllidir. "Penitensiar pomidoru" yemək üçün cinayət törədib həbxsanaya düşmək isə heç də ağıllı fikir deyildi. Hətta bu yola əl atsaq belə, digər məhkumlar kimi, bizim də ancaq boşalmış, xarab pomidorların dadına baxmaqdan başqa şansımızın olmadığı bəlli idi.

Elə bu düşüncələr içərisində "General pomidoru" əldə etməyin yollarını axtırarkən, təsadüfən saytların birində qarşıma maraqlı bir xəbər çıxdı. Məlum oldu ki, general-leytenantın yenicə biznesə qədəm qoyan oğlu Salyan rayonunda atasının şərəfinə "Yolüstü" adlı restoran açaraq, müştərilərə "Penitensiar pomidoru", eləcə də Ceyhun Həsənovun yetişdirdiyi digər tərəvəz məhsullarını təklif etməkdədir. Sayt yazırdı ki, təmtəraqlı açılış mərasimi keçirilən restoran Bakı-Astara magistralının hər iki kənarında yerləşir və general-leytenantın doğulduğu kəndin adını daşıyır.

**İşə bax ki, C.Həsənovun oğlunun restoran açması xəbərini eşidər-eşitməz könlümüzdən "quşdan qanad alıb" Salyana uçmaq həvəsi keçdi. Lakin qarşıdakı günlərdə peşə fəaliyyətimizlə əlaqədar cənub rayonlarından birinə səfərimiz nəzərdə tutulduğundan, "quşları narahat etməyib", məhz həmin vaxt yolüstü general-leytenantın oğlunun restoranına da baş çəkməyi qərara aldıq.**




Beləliklə, həftə sonu "Yolüstü" restoranında "Penitensiar pomidoru" yemək, Ceyhun Həsənovun bostanından olan məhsulların dadına baxmaq arzumuz çin oldu. Oxucularımız arasında da bu istəkdə olanların varlığına şübhə etmədiyimizdən, öncə restoranın yerləşdiyi ərazinin mənzərəsini canlandırmağa çalışaq. Yuxarıda da qeyd etdiyimiz kimi, restoran Salyan rayonu ərazisində yerləşir və Bakı-Astara yolunun hər iki hissəsini əhatə edir. Yanında "SOCAR" yanacaq doldurma məntəqəsi, mağaza, ibadət evi və s. iaşə müəssisələri fəaliyyət göstərir. Obyektin bir hissəsində, daha böyük ərazidə isə adı mətbuatda bir çox qalmaqalda hallanan "Salyan Aqro" yerləşir. Obyektin tikintisi hələ tam başa çatmasa da, ərazidə böyük sürətlə abadlaşma işləri aparılırdı...



Ətrafı bir qədər seyr etdikdən sonra "Yolüstü" restoranına daxil olduq. Gözlədiyimizin əksinə olaraq içəridə müştəri az idi. Görünür, həmin yolun üstündə uzun zamandır fəaliyyət göstərən və özünə müştəri toplayan "Hacıoğlu" kimi restoranlar olduğundan, yenicə fəaliyyətə başlayan "Yolüstü" təbii olaraq müştəri qıtlığı yaşayır...

Restorana daxil olanda diqqətimizi ilk olaraq cəlb edən içəridə quraşdırılan və qiyməti 4 min manatdan ucuz olmayan çoxsaylı "AUX" kondisionerləri oldu. Hiss olunurdu ki, general-leytenant oğlunun biznesi üçün yaxşı pul buraxıb. Amma kondisoner məsələsinin marağımıza səbəb olmasının başqa bir səbəbi vardı. Kimsəyə sirr deyil ki, Penitensiar Xidmətin nəzarətində olan cəzaçəkmə müəssisələrində kondisionerli otaqlar üçün məhkumlardan böyük məbləğdə pullar alınır. Əksər kameralarda isə yay aylarında temperatur 35-40 dərəcədən aşağı düşmür. Bu səbəbdən, bir anlıq fikrimizdən keçdi ki, kaş, Ceyhun müəllim oğlunun obyektinə qoydurduğu 4 min manatlıq "AUX" kondisionerlərindən ikisinin qiymətinə 10-12 ədəd sıradan kondisioner alıb, türmələrdə istidən əzab çəkən kasıb məhbusların kameralarına yerləşdirəydi. Lakin bunun heç vaxt olmayacağını bildiyimizdən, boş xəyala dalmaqdan vaz keçib, masalardan birinə əyləşdik.

Bir neçə dəqiqə sonra sonra ofisiant yaxınlşadı və bizi menyü ilə tanış etdi. İnsaf naminə, qiymətlər cənub zonasında mövcud olan digər restoranlarla müqayisədə münasib idi. Ətrafdakı milçəklərin çoxluğunu nəzərə almasaq, xidmət və yeməklərin keyfiyyəti də pis deyildi. İlk olaraq pomidor sifariş verməyimiz ofisiantı təəccübləndirsə də, istəyimizə uyğun olaraq masaya öncə ayrıca qabda pomidor, əlavə olaraq xiyar və qarpız gətirildi. Tərəvəzlərin yerli məhsul olub-olmadığı ilə maraqlandıqda isə, hamısının "Salyan Aqro"nun bostanından olduğunu söylədi.

**Beləliklə, Avropasayağı həzin musiqilərin sədası altında yeməyimizi yeyib, üstündən də çay içdikdən sonra hesabı istədik. Ofisiant məbləği birbaşa söylədikdə, "sizin restoranda müştərilərə çek verilmirmi" deyə sual etdik. O, "verilir" deyib, kassaya yaxınlaşdı. Az sonra üzərində sadəcə məbləğin qeyd olunduğu ağ kağız parçası ilə geri döndü. Bu zaman bizə agah oldu ki, əksər məmurların obyektlərində olduğu kimi, Ceyhun müəllim də vergi ilə "dərin anlaşma" içərisindədir. Amma uzunçuluq etməyib hesabı ödədik və ofisianta "çayvoy" verməyi də unutmadıq. Restoranı tərk edərkən hər şeydən xəbərsiz kimi, ofisiantdan obyektin sahibinin kim olduğunu soruşduq. Təbii ki, aldığımız cavab bizi heç də təəccübləndirmədi: "Bilmirsiniz, bura türmələrin rəisi Ceyhun müəllimin obyektidir".**

Çıxışda mağazaya da baş çəkib, yol üçün yüngül alış-veriş etdik. Maşına minərkən "Salyan Aqro"nun böyük anbarı diqqətimizi cəlb etdi. Yerli sakinlərin birindən bu anbarda nə saxlanıldığını soruşduq. Məlum oldu ki, Ceyhun Həsənov təkcə tərəvəz yetişdirməklə məşğul deyil, rayonda özünə məxsus hektarlarla ərazidə taxıl da becərir və toplanılan məhsulu "Salyan Aqro"nun anbarına yığır. Dedilər ki, general-mayor buğdanı daha baha qiymətə satmaq üçün qış fəslini gözləyir...

**RƏŞAD**

***P.S. Əlbəttə, "Penitensiar pomidoru" yemək üçün Bakıdan Salyana gedib, sonra onun dadı ilə bağlı düşüncələrimizi oxucularla paylaşmasaq, doğru olmaz. Amma dəyərli oxucuların əfvinə sığınıb, bu haqda susmaq qərarına gəldik...***

Daşkəsən rayon sakini İsgəndərova Həcər Talıb qızı "Hürriyyət"ə növbəti dəfə müraciət edərək bildirir ki, 1997-ci ildə ona verilmiş pay torpağı qanunsuz olaraq başqasına satılıb. Şikayətçi deyir ki, rayonun Xoşbulaq kəndində yerləşən özünə məxsus pay torpağı Gəncədə yerləşən 5 saylı notariat ofisinin rəhbəri Ələkbərov Aris Elman oğlu və Xoşbulaq kəndinin bələdiyyə sədri Rasim Allahverdiyev tərəfindən mənimsənilib.




# Daşkəsən sakininin pay torpağı zəbt olunub

## "Hürriyyət" məsələni işıqlandırdıqdan sonra Gəncə şəhər 5 saylı Notarius ofisinin rəhbəri torpağın pulunu verməyə hazır olduğunu bildirib...

Həcər İsgəndərova aidiyyəti qurumlara müraciət etsə də, şikayətinə baxılmır. O iddi edir ki, notarius rəhbəri Ələkbərov Aris Elman oğlu və kəndin bələdiyyə sədri Rasim Allahverdiyev buna mane olmağa çalışırlar. Rayon sakini hətta onlar tərəfindən təhdid olunduğunu da vurğulayır:

**"1997-ci ildə mənə pay torpağı verilib. Lakin torpaqdan istifadə etməmişdim. Hazırda torpağım əlimdən alınıb, başqasına, notarius rəhbəri Ələkbərov Aris Elman oğluna satılıb.**

Atam 1-ci qrup əlil olub. Hazırda dünyasını dəyişib. Rasim və Aris tərəfindən mənə təhdidlər olunur, lazımsız sözlər deyilir. Öz torpağımı geri istəyirəm, mənə deyirlər ki, bizi məcbur edirsən ki, səni öldürüb torpağa basdıraq, heç kəs də tapa bilməyəcək. Hazırda məktəbdə xadimə işləyirəm. Maddi vəziyyətim çox zəifdir, evim yoxdur. Mənə qalan torpaq kimə satılır? Hansı qanunla satılır? Bələdiyyə sədri Rasim satıb. Bu bələdiyyə sədri Rasim bir dəfə özbaşınalıq etdiyinə görə həbs edilib. Xahiş edirəm ki, mənə kömək edəsiniz. Rüşvətxor məmurların əlində tək qalmışam. Mənə aid olan torpaq qanunsuz olaraq başqasına satılır və orda villa tikilir. Bu nə dərəcədə düzgündür?! Hara müraciət edirəmsə, baxılmır. Məhkəmə, vəkil hamı pul istəyir. Arislə Rasim şikayətimə baxılmasına mane olurlar. Ali savadım yoxdur. Rasim Daşkəsinin Xoşbulaq kəndində bələdiyyə sədri işləyib.

Biz mətbuat vasitəsi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən və Azərbaycan Respublikasının Birinci-Vitse Prezidenti Mehriban xanım Əliyevadan xahiş edirik ki, şikayətimizin yerində bizim iştirakımızla, obyektiv araşdırılıb, Gəncədə yerləşən notarius rəhbəri Aris və kəndin bələdiyyə sədri Rasim adlı şəxslərin barəsində ciddi tədbirlər görülməsinə tapşırıq verəsiniz".

Bəs qanunla pay torpaqları satıla bilərmi? Ümumiyyətlə, pay torpaqları xüsusi mülkiyyət sayılırmı?

Qanunda deyilir ki, hansısa şəxsin adına torpaq sahəsi varsa, onun icazəsi olmadan kiminsə adına keçə bilməz. Əgər onun pulu ödənilməyibsə, məhkəmədə iddia qaldıraraq alqı-satqı müqaviləsini ləğv elətdirə bilər. Qanun imkan verir ki, qarşı tərəf öhdəliyini yerinə yetirməyəndə müqaviləni ləğv etdirsin. Yəni məsələ məhkəmə qaydasında həllini tapa bilər. Ümumiyyətlə, müqaviləni ləğv etmək üçün səbəb çoxdur. Ən azı müqavilənin ləğvini tələb edə bilərlər. Qanunvericilik müqavilənin ləğvinə imkan verir.

**Məlum olduğu kimi, pay torpaqları torpaq islahatı dövründə qanunvericilik əsasında naturada pay almaq hüququ olan şəxslərin (ailənin) xüsusi mülkiyyətinə verilib. Bu o deməkdir ki, pay torpağının hər hansı bir hissəsinin satılması üçün bütün ailə üzvlərinin (payçıların) razılığı tələb olunur. Bu baxımdan, pay torpaqlarının satılması və ya icarəyə verilməsi ilə bağlı müqavilə notarial qaydada təsdiq olunması üçün bütün payçıların iştirakı vacibdir. Bir payçının müxtəlif səbəblərdən iştirak edə bilməməsi (məsələn, şəxs xaricdədir) səbəbindən torpağın satılmasını və ya icarəyə verilməsini mümkünsüz edir.**

Mövzu ilə bağlı hüquqşünaslarla da həmsöhbət olduq. Vəkil Adəm Məmmədov deyir ki, pay torpaqlarını mülkiyyətçinin özündən başqa heç kəs sata bilməz:




"Əgər xanımın əlində pay torpağını təsdiq edən sənədlər varsa, o, məhkəmə orqanına müraciət edərək torpağını geri qaytara bilər. Məkəmə də qanuna uyğun olaraq pay torpağını vətəndaşa qaytara bilər. Əlbəttə ki, pay torpağını təsdiq edən sənədlər varsa. Ümumiyyətlə götürdükdə isə, pay torpaqları xüsusi mülkiyyət hesab edilir".

**Hüquqşünas Bəhruz Bayramov isə sualımıza cavab olaraq bildirdi ki, xanımın xəbəri olmadan ona aid olan torpaq sahəsinin qanunsuz əlindən alınması və satılması cinayət məsuliyyətidir: "Zərərçəkmiş şəxs məhkəmə orqanlarına və prokrorluq orqanlarına müraciət etməlidir. Mənim gəldiyim nəticələrə görə torpaq saxta sənədlərlə ələ keçirilib. Başqasının əmlakını saxta yolla ələ keçirmək və orda tikilinin sökülməsi iddiası qoyula bilər. Qanun bunu sübut edəcək ki, torpaq kimin adınadır. Pay torpaqları xüsusi mülkiyyət sayılır".**

**Şikayətçi isə maddi cəhətdən çox ağır vəziyyətdə olduğunu deyir: "Məhkəməyə pul ödəmək lazımdır, maddi cəhətdən imkanım yoxdur, nə edim, torpağımın əlimdən alınmağına göz yumum? Belə çıxır ki, mənim kimi tək yaşayan qadınların başına belə oyun açılmalıdır. Evim, başqa torpağım yoxdur, harada necə yaşamalıyam mən?! Bu özbaşına məmurların haqsızlıqları nə vaxt sona yetecək?"**

Məsələ ilə bağlı Daşkəsən Rayon İcra Hakimiyyətinin Mətbuat və İctimaiyyət əlaqələr şöbəsinin müdür mavini Elmar Əliyevlə də əlaqə saxladıq. Onun sözlərinə görə, Rasim Allahverdiyev bu cür qanunsuz əməllərinə görə həbsdə olub: "Xanımın işi ilə dünən Hurriyyet.az saytında tanış olmuşdum. Amma nəzərinizə çatdırım ki, bizim qurum bələdiyyənin işinə qarışa bilməz. Bu işə Daskəsən rayonunun kənd bələdiyyəsi baxır. Biz torpaq satmırıq və almırıq. Rasim Allahverdiyev haqqında şikayətlər çoxdur. Dələduzluq etdiyinə və qanunsuz əməllərinə görə həbsdə olub. Hazırda Rasim Allahverdiyevin işinə xitam verilib. O, Xoşbulaq bələdiyəsinin sədri vəzifəsində çalışıb".

Gəncə şəhər 5 saylı Notariat ofisinin rəhbəri Ələkbərov Aris Elman oğlu ilə də əlaqə saxlamağa çalışsaq da, bu, mümkün olmadı. Sonradan məsələ ilə bağlı Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi ilə əlaqə yaratdıq. A.Ələkbərov bizim telefon zənglərimizə cavab verməsə də, məlum idarənin nəzdindəki kommunikasiya qrupu onunla konfrans danışıq yaratmağa nail oldu. O, söhbət zamanı iddia etdi ki, torpağın sadəcə kiçik bir hissəsi onun həyətinə qarışıb. Daha sonra Ədliyyə Nazirliyinin kommunikasiya qrupunun əməkdaşı şikayətçi Həcər xanımı da danışığa qoşdu. Bu zaman məlum oldu ki, A.Ələkbərov şikayətçi xanımı bir dəfə də olsun görməyib. Üstəlik, Həcər xanım hədələndiyi haqda redaksiyamıza verdiyi məlumatı da bu söhbət zamanı inkar etdi və aydın oldu ki, Aris Ələkbərov tərəfindən ona heç bir hədə-qorxu olmayıb.

"Həm də məsələ bağlı heç bir rəsmi quruma şikayət edilməyib. Yəni Həcər xanım heç yerə müraciət etmədən, şikayət üçün ilk ünvan olaraq "Hürriyyət"i seçib", - deyən A.Ələkbərov daha sonra Həcər xanımdan zəbt olunan torpağın sahəsinin nə qədər olduğunu soruşdu. Qarşı tərəf 1 sotdan az olduğunu dedikdə, Aris Ələkbərov "qiymətini öyrənin, mən pulunu ödəməyə hazıram",- deyə bildirdi.

**Jalə FAMİLQIZI**

***P.S. Əlbəttə, Aris müəllim ona verilən torpağın kimə məxsus olduğunu bilməli idi. Bir halda ki, o, dövlət orqanında işləyir, bu işə biz yox, özü vaxtında müdaxilə etməliydi.***

***P.P.S. Mövzunu davam etdirəcəyik. Maraqlı tərəflərin mövqeyini dərc etməyə hazırıq.***

Rusiya prezidenti Vladimir Putinin yaxın silahdaşı, Kremlin mətbuat katibi Dmitri Peskov iddia edir ki, Rusiyanın Ukraynada apardığı "xüsusi əməliyyat" yolunda gedir və bütün hədəflər yerinə yetiriləcək. Halbuki, reallıqda tamam fərqli mənzərə müşahidə olunmaqdadır. Belə ki, Ukrayna prezidenti Vladimir Zelenski xalqa müraciətində Ukrayna ordusunun Donetsk vilayəti və cənub istiqamətində 3 yaşayış məntəqəsini azad etdiyini bəyan edib: "Donetsk vilayətində böyük irəliləyiş edərək yaşayış məntəqəsini azad edən 103-cü ərazi müdafiəsi briqadasının 63-cü taboruna təşəkkür edirəm. 54-cü briqada da Lisiçansk-Seversk istiqamətində irəli gedərək mühüm yüksəkliyi ələ keçiriblər".



sına dözə bilməyəcəklər. Almaniyanın xarici işlər naziri Annalena Berbok isə bildirib ki, hətta ölkə əhalisi küçələrə çıxıb, etiraz etsə belə, onlar mövqelərini dəyişməyəcəklər və Ukraynaya dəstəyi davam etdirəcəklər. Rusiya enerjidən silah kimi istifadə etmək imkanlarının sonuna yaxınlaşır. Bu silah onun əlindən çıxmaqdadır. Rusiya bu gün artan enerji qiymətlərindən faydalansa da, strateji baxımdan itirən tərəfdir. O, artıq Avropanın strateji enerji tədarükçüsü rolundan məhrum olur və gələcəkdə bir daha bu rolunu bərpa edə bilməyəcək. Rusiya bütün dünyanın gözü qarşısında qaz şantajına əl ataraq tamamilə etibarsız, güvənilməz tərəfdaş olduğunu öz əməlləri ilə nümayiş etdirir. Rusiya həm enerji, həm də nüvə silahı şantajından istifadə et-

# Putin Rusiyanı uçuruma aparır

## G7 ölkələrinin tam dəstəyini alan Ukrayna itirilmiş mövqelərini geri almağa doğru addım-addım irəliləyir

Onu da qeyd edək ki, ABŞ-ın Müharibənin Öyrənilməsi İnstitutunun yaydığı məlumat da deyilənləri təsdiqləyir. Belə ki, bununla bağlı axar.az-da yer alan informasiyaya görə, sözügedən institut Ukrayna Silahlı Qüvvələrinin əkshücumlarının cənub və şərqdə nəzərəçarpacaq dərəcədə uğurla davam etdiyini vurğulayıb: "Ukrayna qoşunları Xerson vilayətinin qərb hissəsində bir neçə istiqamətdə irəliləyib və Donetsk vilayətində Severski Donets çayının o tayındakı ərazilərin təhlükəsizliyini təmin ediblər. Ukrayna qüvvələri Rusiya qüvvələrini tükəndirmək və onların qarşısını almaq üçün Rusiyanın quru rabitə xətlərinə, sursat anbarlarına və əsas mövqelərinə zərbələr endirməkdə davam edir. Ola bilər ki, ruslar vaxtaşırı əks-hücuma keçəcək və azad edilmiş yaşayış məntəqələrinə və irəliləyən Ukrayna qoşunlarına güclü artilleriya və havadan hücumlar həyata keçirərək itirilmiş mövqelərin bir hissəsini geri alacaqlar".

### "Proseslərin yekununda Rusiya qlobal geosiyasətdəki çəkisini itirərək orta ölçülü regional güc səviyyəsinə düşəcək"

Gördüyünüz kimi, Dmitri Peskovun dediyinin əksinə olaraq, Ukrayna ordusu addım-addım irəliləyir. Şübhəsiz ki, Ukrayna ordusunun Rusiya qarşısında duruş gətirməsi, hətta bəzi istiqamətlərdə ciddi irəliləyişlərə nail olması "Böyük yeddilik" (G7) ölkələrinin - ABŞ, İngiltərə, Almaniya, Fransa, İtaliya, Yaponiya və Kanadanın rəsmi Kiyevə siyasi, hərbi və maddi dəstəyi sayəsində mümkün olub. Artıq heç kimə sirr deyil ki, G7 ölkələri yeni sanksiyalar tətbiq etməklə Rusiyanı təcrid etməyə, onu siyasi və iqtisadi iflasın eşiyinə gətirməyə çalışırlar. Məsələyə təxminən, bu konteksdən yanaşan siyasi şərhçi Şahin Cəfərli bildirib ki, G7 ölkələri Rusiya nefti üçün maksimal qiymət həddi müəyyənləşdirəcək: "Qərar ABŞ, Kanada,



Şahin Cəfərli: "Rusiya enerjidən silah kimi istifadə etmək imkanlarının sonuna yaxınlaşır"

Britaniya, Almaniya, Fransa, İtaliya, Yaponiya maliyyə nazirlərinin və bank təmsilçilərinin toplantısında qəbul olunub. Qərara əsasən müəyyənləşdiriləcək qiymətdən daha yuxarı qiymətə satılacaq Rusiya xam neftinin, eləcə də neft məhsullarının dəniz yolu ilə daşınması əngəllənəcək". Siyasi şərhçi qeyd edib ki, Rusiya neftinin təyin olunacaq qiymətdən baha satılmasını əngəlləmək üçün başlıca mexanizm Rusiya neftini daşıyan gəmilərə (tankerlərə) sığorta xidmətlərinin göstərilməsini dayandırmaqdır: "Bu xidmətləri həyata keçirən əsas beynəlxalq qurum (International Group of P&I Clubs - IG P&I) Londonda yerləşir. Həmin klubda təmsil olunan 13 qurumdan 7-si Britaniya, digərləri ABŞ, Yaponiya, Skandinaviya ölkələrinin şirkətləridir. Onların sığorta xidmətləri dünya tanker donanmasının 95%-ni əhatə edir. Sığorta və təkrar sığorta bazarı (Lloyd's of London) da Britaniya-



Elxan Şahinoğlu: "Almaniya, Fransa, Macarıstan, Çexiya, Yunanıstan və İtaliya kimi dövlətlər Moskva ilə əlaqələri bərpa etməyi arzulayırlar"

da yerləşir. Sığortasız tankeri heç bir liman qəbul etmədiyindən, bu cür xidmət çox vacib şərt sayılır. Qeyd etmək lazımdır ki, Rusiya nefti son aylar sanksiya olmadan da diskontla satılır. Məsələn, iyulda Brent neftinin orta qiyməti 102 dollar olduğu halda, Rusiyanın Urals neftinin orta qiyməti 78,41 dollar təşkil edib. Əslində bu da yüksəkdir və Moskvanın gəlirlərinin artmasını təmin edir. Bu səbəbdən G-7 ölkələri yuxarı qiymət həddi müəyyən etməyə qərar veriblər ki, Rusiya nefti bir tərəfdən satılmağa davam etsin və bazarda təklif azalmasın, eyni zamanda Moskva böyük gəlirlər əldə edə bilməsin. Dövlət aparatı və qanqsterlərin simbiozundan ibarət mafioz Putin rejimi əlbəttə ki, sanksiya tədbirlərindən yayınmaq üçün müxtəlif sxemlərə əl atacaq, belə bir qabiliyyəti və imkanları var. Məsələn, Urals neftini başqa neftlə qarışdırıb, fərqli adla satmaq istisna deyil və sair..."

Rusiyanın qəza bəhanəsi ilə "Şimal axını-1" kəməri vasitəsilə Avropaya təbii qaz nəqlini dayandırdığını vurğulayan siyasi şərhçi hesab edir ki, bu, açıq siyasi şantajdır. Onun fikrincə, burada əsas məqsəd Avropa Birliyinin iradəsini "sındırıb", onu ABŞ-la blok şəklində hərəkət etməkdən çəkindirmək və Qərbin Ukrayna məsələsində vahidliyini pozmaqdır: "Lakin artıq zaman dəyişib və Avropa Birliyi Putinin şantajına boyun əymək niyyətində deyil. Artıq Almaniya hökuməti əvvəl fəaliyyəti dayandırılmış, kömürlə işləyən İES-lərin işini bərpa edir. Belə bir hadisənin baş verəcəyi qısa müddət əvvələ qədər təsəvvür edilə bilməzdi, özü də yaşılların hökumətində. Hətta "Greenpeace" də qərarı anlayışla qarşılayıb. Avropada qaz anbarları 80-90% həcmində dolub. Bununla yanaşı, Avropa Birliyi qənaət tədbirləri də həyata keçirir. Almaniya Rusiyadan asılılığı azaltmaq üçün əvvəl 4 ədəd üzən LNG terminalı sifariş etmişdisə, indi bunların sayını 6-ya çatdırmağa qərar verib. Terminalların sistemə qoşulması bu ildən başlayaraq 1,5 il ərzində başa çatdırılacaq. Bu terminalların hər biri 5 milyard kubmetr qaz verəcək, müqayisə üçün deyək ki, 2021-ci ildə Almaniya Rusiyadan 48,2 milyard kubmetr qaz alıb. Yəni çox yaxın gələcəkdə rus qazının əsas alıcısı olan Almaniya bu asılılığa son qoyacaq".

Şahin Cəfərlinin qənaətincə, çətini bu qışı yola verməkdir: "Putinin gümanı budur ki, avropalılar rahatına düşkün, hedonist adamlardır və qışda evlərində, ofislərində, barlarda hərarətin azalmasına, üstəlik, qiymətlərin də artmaməklə bütün kartlarını indidən açıb və başqa gedişi qalmayıb. Qərb isə poker oyunçusu təmkini ilə hərəkət edir və Ukraynanın silahlandırılmasında hələlik öz imkanlarının ən minimal səviyyəsini reallaşdırıb". Siyasi şərhçinin sözlərinə görə, bu proseslərin yekununda Rusiya qlobal enerji, eləcə də silah bazarındakı mövqelərini itirəcək, onun beynəlxalq nüfuzu ciddi şəkildə zədələnəcək və nəticədə qlobal geosiyasətdəki çəkisini itirərək orta ölçülü regional güc səviyyəsinə düşəcək.

### "Almaniya, Fransa, Macarıstan, Çexiya, Yunanıstan və İtaliyanı çətin keçəcək qışın qorxutduğu üçün onlar Rusiya qazına ümidlərini üzməyiblər"

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi Qərbi iki yerə bölüb: "ABŞ, Böyük Britaniya, Polşa və Baltik ölkələri Rusiyaya qarşı sərt siyasətin davamını istəyərkən, Almaniya, Fransa, Macarıstan, Çexiya, Yunanıstan və İtaliya kimi dövlətlər müharibənin istənilən şəkildə bitməsini və Moskva ilə əlaqələri bərpa etməyi arzulayırlar". Almaniya, Fransa, Macarıstan, Çexiya, Yunanıstan və İtaliyanı çətin keçəcək qışın qorxutduğunu bildirən politoloqun fikrincə, onlar Rusiya qazına ümidlərini üzməyiblər: "İşğalçı Rusiyanın da ümidi Avropadakı keçmiş dostlarınadır. Ukrayna isə yalnız ordusuna və həqiqi dostlarına ümid etmək məcburiyyətindədir".

**Vazeh BƏHRAMOĞLU**



# Nəhənglərin savaşı...

## Dünyanı təhdid edən ABŞ-Çin müharibəsi olacaqmı?

Biz böhranın cənginə düşmüş 21-ci əsri yaşamaqdaykən, Şərqlə Qərb arasındakı münaqişə qəzetlərin manşetinə çevrilib. Lakin yaxından nəzər saldıqda məlum olur ki, qarşıdakı onillikdə ən təhlükəli təhdidlər və toqquşmalar Qərblə Asiya, Afrika, Latın Amerikası, eləcə də Sakit Okean regionlarını əhatə edən qlobal Cənub arasındakı gərginlikdən qaynaqlanacaq.

Ümumiyyətlə, dünya ekspertləri səviyyəsində belə qəbul olunur ki, növbəti supergüclər toqquşmasında ABŞ-la Çin arasında baş verəcək. Lakin onların arasında gedən "sürtüşmələr"ə nəzər salınca belə təəssürat yaranır ki, bu iki ölkə arasında qlobal soyuq müharibə yoxdur və olmayacaq. Səbəb odur ki, 20-ci əsrə xas təhdidlər 21-ci əsrdə də zəruri olan dövlətlərin bir-birindən qarşılıqlı asılılığını aradan qaldırmayacaq. Dolayısı ilə ABŞ-la Çin bir-birindən asılıdırlar və əməkdaşlığa məcburdurlar. Ən başda da iqtisadi müstəvidə. Vaşinqton və Pekin arasında etimad azdır, lakin ABŞ rəhbərliyi başa düşür ki, ölkənin uğur qazanması üçün Çin ona hələ də lazımdır. Üstəlik, ABŞ-ın Avropa, Asiya və Latın Amerikasındakı ən yaxın müttəfiqlərinin Çinlə böyük güc uğrunda münaqişədə iştirak etmək arzusu yoxdur. Çinlə ticarət onların gələcəyi üçün çox vacibdir.

**"Səma İmperiyası"nın güclü destabilizasiyası zəmanətli qarşılıqlı iqtisadi məhvə gətirib çıxaracaq. Səbəb məlumdur: Çin dünyanın fabrikasıdır və ondan asılılığı azaltmaq üçün Çin nümunəsini şaxələndirmək, "başqa fabrika modelləri" yaratmaq lazımdır. Üstəlik, Pekin Vaşinqtonun ən böyük ticarət tərəfdaşı, ən böyük təchizatçısı və üçüncü ən böyük ixrac bazarı olaraq qalır. Amerika da öz növbəsində hələ də Çinin ən böyük ticarət tərəfdaşı və ən böyük ixrac bazarıdır. Si Szinpin də bilir ki, Çin Kommunist Partiyasının daxili siyasi hakimiyyəti monopoliyada saxlaması onun xalqının ümidlərini doğrultmasından asılıdır. Həyat keyfiyyətinin yaxşılaşdırılmasına davam etmək üçün Pekin Çin ixracının 40%-ni təşkil edən Aİ, Amerika və Yaponiya ilə güclü ticarət əlaqələrini saxlamalıdır.**

...Bu qeyri-sabit mühitdə Hindistan qlobal Cənubun lideri olacaq. O, indi Pekinin artan təsirini cilovlamaq üçün ABŞ-ın müttəfiqi rolundadır, lakin Çin və Rusiyadan gələn imtina edilməsi çətin olan çoxlu ticarət imkanları var...

Qarşılıqlı asılılıq Şərqlə Qərbi ortaq hədəfə gedən yolda eyni gəmidə saxlayır. Təəssüf ki, siyasi və iqtisadi sarsıntılara ən çox həssas olanlar qlobal cənubun yoxsul ölkələridir. Qarşıdakı illərdə dünyanın ən çox əhalisinə sahib olacağı proqnozlaşdırılan Hindistan da onlardan biridir. Bu cür dövlətlər növbəti onillikdə milyonlarla miqrant və qaçqının məskəninə çevrilə bilər ki, bu da öz növbəsində qlobal tələtümləri daha da gücləndirəcək.

Təchizat zəncirlərinin pozulması, artan faiz dərəcələri və artan inflyasiya, iqtisadi artım tempinin yavaşlaması və pul köçürmələrinin azalması bu onillikdə inkişaf etməkdə olan dünyanın borc böhranına girməsi üçün zəmin yaradır. Son dönəmdə ideyaların, informasiyanın, insanların, pulların, malların və xidmətlərin sərhədləri aşaraq axını zəngin və kasıb dövlətlər arasında sərvət fərqini nisbətən azaltmışdı və həmçinin "dünya orta sinfini" əmələ gətirmişdi. Amma proses qırıldı.

Bunun günahı qismən pandemiyadadır. Pandemiya onsuz da borclu olan kasıb ölkələri çətin vəziyyətə saldı. Dünya Bankı xəbərdarlıq edib ki, dünyanın ən yoxsul ölkələrinin 58%-i "ya artıq borc böhranı içərisindədir, ya da borclanma riski yüksəkdir". Növbədə orta gəlirli ölkələrdir.

**Rusiyanın apardığı müharibə prosesə qiymət dəyişkənliyini, ərzaq və yanacaq qıtlığını gətirdi. Ukraynadakı çıxılmaz durumun qlobal qeyri-sabitliyə təkan verməsi ehtimalının yüksək olduğunu nəzərə alsaq, bu məsələ qarşıdakı dönəmdə Qərblə Cənub arasında uçurumu genişləndirəcək. ABŞ və Avropada hesab edirlər ki, Ukrayna münaqişəsinin yoxsul ölkələri düçar etdiyi iqtisadi təzyiq Rusiyanın açıq-aşkar "müstəmləkə təcavüzünün" nəticəsidir. Amma qlobal Cənub ölkələri Qərbin ikiüzlülüyünü görür. Onlar hesab edirlər ki, ABŞ-la Avropanın qəzəbi yalnız ağdərililərə qarşı cinayətlər və ağ qaçqınların acınacaqlı durumu ilə bağlıdır. Bəs qalanları necə? Onlar o qədər də vacib deyil. Bundan əlavə, yoxsul ölkələr iqlim dəyişməsinin zərərini məhdudlaşdırmaq üçün zəngin ölkələrə nisbətən daha az hazırlıqlıdırlar. Bu, xüsusilə Afrika və Yaxın Şərqdə, artan temperaturun getdikcə daha çox insanı sınağa çəkəcəyi, eləcə də artıq yoxsulluq və zorakı cinayətlər bataqlığında olan Mərkəzi Amerikada aktualdır.**



Ukrayna münaqişəsi ilə bağlı təhdid qorxuları Qərb liderlərini Əfqanıstan, Yəmən və başqa yerlərdə davam edən münaqişə və böhranlardan daha da yayındıracaq. İqlim dəyişikliyindən gələn zərərin məhdudlaşdırılması planları fəlakətlərə və məcburi köçkünlərə yönəldiləcək. Bu qeyri-sabit mühitdə Hindistan qlobal Cənubun lideri olacaq. O, indi Pekinin artan təsirini cilovlamaq üçün ABŞ-ın müttəfiqi rolundadır, lakin Çin və Rusiyadan gələn imtina edilməsi çətin olan çoxlu ticarət imkanları var.

Ticarət, texnologiya və iqlim dəyişikliyinə gəldikdə, Hindistanın inkişaf etməkdə olan dünya ilə çoxlu ortaq cəhətləri var. Narendra Modinin hökuməti yaxın illərdə ölkəsinin üzləşəcəyi getdikcə daha ağır iqtisadi çətinliklərə necə cavab verəcək? Yeni Dehlinin Vaşinqtonla hazırkı yaxınlaşması bəlkə də kulminasiya nöqtəsinə çatıb. Qarşıdakı dönəmdə bütün bu çətinliklərin öhdəsindən gəlmək üçün Qərb ölkələri mümkün qədər planları uzlaşdırmalıdır.

Bundan əlavə, zəngin ölkələr qlobal sabitliyə - istər borcların azaldılması, istər texnologiya transferi, istərsə də iqlimə uyğunlaşma proqramları vasitəsilə sərmayə qoymalıdırlar. Qlobal Cənubun ehtiyacları kontekstində Pekinlə əməkdaşlıq etmək mümkündürmü? Hələlik bu, boş bir xəyal kimi görünür. Lakin dünyanın ən böyük kreditoru olan Çin inkişaf etməkdə olan bazarlardakı qarışıqlıqdan ABŞ və onun müttəfiqlərindən daha çox itirəcək bir şeyə malikdir. Nəhayət, Şərqlə Qərb arasında daha konstruktiv əlaqə qlobal Cənubu tamamilə dağılmaqdan xilas etməyin yeganə yolu ola bilər.

**Ülviyyə ŞÜKÜROVA**




# Ramiz Mehdiyev hakim qarşısına çıxarıla bilər

## Prezident Administrasiyasının sabiq rəhbərinin məhkəmədə ifadə verməsi istənildi

**“Baku Steel Company” şirkətinin sabiq rəhbəri Rasim Məmmədovun cinayət işi ilə bağlı məhkəmənin hazırlıq iclası davam etdirilib.**

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə keçirilən iclasda vəkillər Elçin Sadıqov və Pərviz Məmmədov iş üzrə bəzi sübutların iş materiallarından çıxarılması və üzərinə həbs qoyulmuş əmlaklarla bağlı vəsatət qaldırıblar.

Müdafiəçilər təqsirləndirilən şəxsin adına yazılmış əmlakların onun qohumlarına aid olduğunu deyiblər. Hər iki vəsatət baxılmamış saxlanılıb.

Bundan başqa, məhkəmədə Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin cinayətin predmeti ilə bağlı əlavə şahid kimi dindirilməsi istənilib.

“83 yaşlı adamdır, lazım deyil”, - Rasim Məmmədov vəsatətə münasibət bildirib.

Məhkəmə zərurət yaranacağı halda əlavə şahidlərin çağırılmanın mümkün olacağını qeyd edərək vəsatəti baxılmamış saxlayıb.

Rasim Məmmədovun ev dustaqlığına buraxılması və şüşə qəfəsdən çıxarılması ilə bağlı vəsatətlər isə təmin edilməyib.

İclasda əmlakları üzərinə həbs qoyulmuş şəxsləri təmsil edən vəkil Bəxtiyar Hacıyev də vəsatət qaldırıb. Vəkil Konstitusiya məhkəməsinin qərarına istinad edərək müstəqil tələb irəli sürən üçüncü şəxs qismində tanınmalarını istəyib. Vəsatətdə üzərinə həbs qoyulmuş şəxslərin mülkiyyət hüququ pozulduğu, sərəncam vermək hüquqlarının olmadığı qeyd olunub.

Məhkəmə bu vəsatəti də baxılmamış saxlayıb.

Baxış iclası sentyabrın 9-a təyin olunub.

Xatırladaq ki, Rasim Məmmədov 2021-ci ilin fevralın 1-də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs olunub.

Rəsmi məlumatda bildirilib ki, “Baku Steel Company” MMC-nin Müşahidə şurasının sədri Məmmədov Rasim Hikmət oğlunun tutduğu vəzifədən irəli gələn səlahiyyətlərdən sui-istifadə edərək ölkə ərazisində metallurgiya sənayesinin inkişafına, fiziki və hüquqi şəxslərin hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran qanunsuz əməllərə yol verməsi ilə bağlı faktlara dair daxil olmuş məlumatlar DTX tərəfindən araşdırılıb.

Başlanılmış cinayət işi üzrə Rasim Məmmədovun müvafiq vəzifədə işlədiyi dövrdə öz səlahiyyətlərindən qulluq mənafelərinə qəsdən zidd olaraq istifadə edib rəsmiləşdirilmiş satış üzrə müəssisəyə mədaxil edilməmiş pul vəsaitlərindən 13 milyon 200 min manatı mənimsəmə yolu ilə talamasına, 42 milyon manat dəyərində istehsal olunmuş məhsulu israf etməsinə, bu əməlləri ilə “Baku Steel Company” MMC-nin maliyyə ehtiyatlarına və davamlı fəaliyyətinə mühüm ziyan vurmasına, həmçinin müxtəlif şəxslərdən külli miqdarda pul vəsaitini aldatma və etibardan sui-istifadə etməklə elə keçirib təkrar dələduzluq əməllərini törətməsinə əsaslı şübhələr müəyyən olunub.

Rasim Məmmədov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**Uzun illər idi ki, Kərəm Həsənov ləğv edilmiş Əmlak Məsələləri Dövlət Komitəsinin sədri idi. 2019-cu lin oktyabr ayının 23-də K. Həsənov vəzifəsindən azad edildi. Daha sonra isə Əmlak Məsələləri üzrə Dövlət Komitəsi İqtisadiyyat Nazirliyinə birləşdirildi.**




# Mətin Eynullayevin də öz “brokerləri” var...

## Əmlak Məsələləri üzrə Dövlət Xidməti üzərinə düşən işi görmür; vətəndaşlar Kərəm Həsənov Əmlak Komitəsinə geri qaytarılmasını istəyir





Əmlak Məsələləri Dövlət Xidməti hazıra İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Lakin ötən bir neçə ay ərazində bu xidmətin xeyli sayda refional idarə rəisi və əməkdaşları hüquq-mühafizə orqanları tərəfindən həbs edilib.

Xidmətdə işlər o qədər passiv və ləng gedir ki, artıq narazılıqlar da kifayət qədər çoxalıb. Tən 3 il müddətində bir zamanlar müstəqil dövlət komitəsi olaraq fəaliyyət göstərən qurumun əməkdaşları deмək olar ki, fəaliyyətsiz bir vəziyyətdə qalıblar.

Eyni zamanda uzun illər vətəndaşlara xidmət göstərilən bir sıra xidmətlər də rəsmi olaraq həyata keçirilmir. Uzun illərdir istifadəsində olan torpaq və dövlət obyektləri üzərində mülkiyyətçi olmaq istəyən vətəndaşlar get-gələ salınır. Onların sərəncamlarında olan torpaq sahələrini özəlləşdirməsi üçün heç bir şərait yaradılmır.

“Hürriyyət”ə müraciət edən narazı vətəndaşlar bildirir ki, bu dövlət xidməti əslində lazım olan işləri həyata keçirmir. Hətta yeni qaydalar da tətbiq edilir. Qaydalara əsasən, xidmətə edilən müraciətlər aylarla toplanır. Qeyri-rəsmi olaraq tətbiq edilən prossedur qaydalarına görə, ən azı 500 mülkiyyət iddiasına dair sənəd toplanmalıdır ki, rəhbərə təyin edilsin.

Şikayətçilər iddia edir ki, qaydaları xidmətin rəisi Mətin Eynullayev təsdiqləyib. Eyni zamanda M.Eynullayev bu işləri daha çox kənar MMC-lər vasitəsilə həyata keçirir. Məsələn, daxil olan informasiyalara əsasən hazırda Bakı şəhərində, İçəri Şəhər Dövlət Qoruğu ərazisində yerləşən bir neçə kontor var. Bu kontorlar vasitəsilə sənəd almaq istəyən vətəndaşlara “yardım” təklif edilir. Yəni dövlət xidmətinin “arxa qapısı” anlamında fəaliyyət göstərən qurum daha tez sənədlləşdirmə təklifi edir. Gömrükdə olduğu kimi broker xidməti formasında.

Görünür, Mətin Eynullayev məhz bu səbəbdən 500 müraciətin toplanması kimi bir tələb qoyub ki, öz “brokerlər”inə şərait yaratsın.

Redaksiyamıza müraciət edən vətəndaşlar bildirir ki, əslində dövlət xidmətinin bir sıra səlahiyyətləri elektronlaşdırılıb. Lakin zamanında Kərəm Həsənov tərəfindən təqdim edilən və tam hazır vəziyyətə gətirilmiş xidmətlərin heç biri elektron sistemə daxil edilməyib. Həmsöhbətimiz deyir ki, bu qısqanclıq və daha çox pul qazanmaqla vətəndaşları kütləvi formada narazı salmaq məqsədilə edilir.

“Çünki Kərəm Həsənovun zamanında mülkiyyət hüququna dair sənədlərin alınması üçün daha rahat və asan sistem hazırlanmışdı. Həmin sistemin Asan Xidmət sisteminə, elektron bazaya inteqrasiya edilməsi qalmışdı. Komitənin ləğv edilərək, İqtisadiyyat Nazirliyinə birləşdirilməsindən sonra prosses dayandırıldı. İndi elektron xidmətlər üzərindən itmiş sənədlərin nüsxələrinin çıxarılması və təsdiqlənməsi prosesi həyata keçirilir. Faktiki olaraq qanuni yollarla sərəncamlarında olan mülkiyyətini özəlləşdirmək istəyən vətəndaşlara bürokratik qaydada əngəllər yaradılır. Biz istəyirik ki, yeni sistem ləğv edilsin, elə Kərəm Həsənov da yenidən əvvəlki işinə geri qaytarılsın. Heç olmasa o zamanlarda bizdən rüşvət də alsaydılar, işimizi asanlıqla həll edə bilərdik”, - deyə həmsöhbətimiz qeyd edir.

Maraqlıdır ki, bu günə qədər adıçəkilən xidmət Bakı və ətraf kəndlərdə qanunsuz mənzillərlə bağlı da qərar verə bilmir. Ekspertlər hesab edir ki, Əmlak Məsələləri üzrə Dövlət Xidməti üzərinə düşən işi görmür. Bakıdakı sənədsiz mənzil və obyektlərin siyahısının dəqiqləşdirilməsi həyata keçirilmir. Bütün standartlara cavab verən mənzil və obyektlərin sənədləşdirilməsi prosesi aparılmır. Baxmayaraq ki, reyestr məlumatlarının toplanması, dəqiqləşdirilməsi məqsədilə dövlət büdcəsindən hər il 7 milyon manata yaxın vəsait ayrılır. Eyni zamanda dövlət əmlakının icarəyə verilməsi, idarə olunması və istifadəsinə dair də heç bir dəqiq elektron baza yaradılmayıb.

Görünür, xidmətdə bu işləri ona görə həyata keçirmirlər ki, xaotik durum onların işinə yarayır. Məhz 500 müraciətin bir yerə toplanması və aylarla vətəndaşlara cavab verilməməsi də bu xaotizmin əsas istiqamətidir. Yoxsa niyə 3 ildir narazı qalan vətəndaşlar Kərəm Həsənovun vəzifəsinə geri qaytarılmasını istəsinlər?!

Onu da əlavə edək ki, K.Həsənov Prezidentin müvafiq sərəncamı ilə 2019-cu ulin noyabrın 29-da Prezident Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri təyin edilib.

Təcrübədə isə işinin öhdəsindən “hansı formada olursa olsun” prinsipi ilə gələn məmurların təkrar əvvəlki vəzifəsinə geri qaytarılması halları olub.

**YƏHYA**

***Redaksiyadan: Mövzu ilə bağlı qarşı tərəfin mövqeyini dinləməyə hazırıq.***

# Binəqədi prokurorunun “sudan quru çıxmaq” cəhdi

## Başqasının qanunsuz hərəkətlərini əsaslandırmaq Fuad Məmmədovu məsuliyyətdən azad edə bilərmi?

Rusiya Federasiyasının vətəndaşı Mamedov Vüqar Ağəli oğlunun rəsmi nümayəndəsi, etibarnamə əsasında onun hüquqlarını müdafiə edən Abdullayev Böyükağa Abdulla oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına növbəti şikayət məktubu daxil olub. Həmin məktubu olduğu kimi dərc edirik:



**“Hörmətli redaksiya!**

Bakı şəhəri, Binəqədi rayon prokuroru Fuad Məmmədovun Baş Prokurorluğun göstərişlərinə məhəl qoymaması, onun Baş prokurorun göştərişlərini yerinə yetirməməsi, bir sözlə “aşağı orqanlar Baş prokuroru eşitmir” kimi, Rüsiyanın Azərbaycan dövləti qarşısında nota (No1600-n) verməsi barədə silsilə yazıları mətbuatınızda mütəmadı işiqlandırırsınız. Qanunun doğru-düzgün və eyni cür tətbiqinə nəzarət edən bir orqanın - rayon prokurorun Baş prokurorun tapşırıqlarını yerinə yetirməməsi ilk öncə dövlətimiz və dövlətçiliyimiz üçün acınacaqlı haldır. Bu, cəmiyyətin məhvinə hesablanmış addımdır. Buna biganə qalmaq olmaz. Ona görə də bu məsələ tam həllini tapana kimi faktları, subutları və dəlilləri aidiyyəti qurumların diqqətinə çatdırmalıyıq. Bu məsələdə ən ağır yük mətbuat olaraq sizin üzərinizə düşür və axıra kimi köməklik göstərməyinizi xahiş edirəm.

İbtidai araşdırmaya prosesual rəhbərliyi həyata keçirən Binəqədi rayon prokuroru Fuad Məmmədov, nəhayət, Baş Prokurorluğun göstərişlərinə əməl olunmamasının səbəblərini mənə, yəni ərizəçi, Rusiya vətəndaşı Məmmədov Vüqar Ağəli oğlunun nümayəndəsi Abdullayev Böyükağa Abdulla oğluna ünvanladığı 08.08.2022-ci il tarixli 881-Ş-22 saylı cavab məktubunda aşağıdakı kimi xarakterizə etmişdir.

Fuad Məmmədov bildirir ki, sizə məxsus “Chevrolet Aveo” markalı 99 AV 759 dövlət qeydiyyat nişanlı avtomobilinin Əkbərov Vüsal Cəmaləddin oğlu tərəfindən Bakı şəhəri, Xəzər rayonu ərazisində ələ keçirilməsi ilə bağlı müraciətiniz Binəqədi rayon Prokurorluğunda baxılmışdır.

Müraciət öyrənilərkən müəyyən edilmişdir ki, Sizə məxsus “Chevrolet Aveo” markalı 99 AV 759 dövlət qeydiyyat nişanlı avtomobilinizin Əkbərov Vüsal Cəmaləddin oğlu tərəfindən Bakı şəhəri, Xəzər rayon ərazisində ələ keçrilməsi ilə bağlı şikayətiniz əsasında toplanmış material üzrə Bakı şəhər Xəzər rayon Polis İdarəsinin 3-cü Polis Şöbəsində və İstintaq Şöbəsində 03 noyabr 2021-ci il tarixdən 12 aprel 2022-ci il tarixədək olan müddət ərzində heç bir araşdırılma aparılmamış, müraciət müəllifi Vüqar Məmmədovun, şikayətçi olduğu Vüsal Əkbərovun, eləcə də digər şəxslərin izahatları alınmamış, Vüsal Əkbərovun hərəkətlərində cinayət qanununda nəzərdə tutulan hər-hansı cinayətin tərkib əlamətlərinin olub-olmadığı müəyyənləşdirilməmişdir, hadisənin cinayət kimi qeydə alınması, vahid uçota qoyulması, fakt üzrə və ya şəxsə görə cinayət işinin başlanması haqqında qərar qəbul edilməmiş, Azərbaycan Respublikasının Cinayət Prosesual qanunvericiliyinin tələblərinə riayət edilmədən və kobud şəkildə pozulmaqla materialın aidiyyəti üzrə göndərilməsi haqqında qərar qəbul edilmədən material Bakı şəhəri, Binəqədi Rayon Polis İdarəsinə göndərilmişdir.



Bundan başqa, Binəqədi rayon Prokuroru Fuad Məmmədov onu da bildirir ki, AR.CPM-nin 49.1-ci maddəsinin tələbinə görə, bir neçə şəxsin cinayəti birlikdə törətməkdə ittiham olunmaları üzrə cinayət təqibi və ya bir şəxsin bir neçə cinayəti törətməsi barədə cinayət təqibi bir icraatda birləşdirilə bilər.

Lakin Rusiya vətəndaşının avtomobilinin ələ keçirilməsində cinayət hadisəsinin və ya cinayət tərkibinin olması ilə bağlı Bakı şəhəri, Xəzər rayon Polis İdarəsinin İstintaq Şöbəsi tərəfindən Vüsal Əkbərov barəsində cinayət işi başlanılmamışdır və həmin iş üzrə Vüsal Əkbərova ittiham irəli sürülməmişdir.

Binəqədi rayon Polis İdarəsinin İstintaq Şöbəsində Vüsal Əkbərovun barəsində olan 220040106 saylı cinayət işi Binəqədi rayon məhkəməsinə göndərilmişdir və Xəzər rayon Polis İdarəsi tərəfindən toplanmış və bizə göndərilmiş materialı yenidən araşdırmanın davam etdirilməsi üçün Xəzər rayon Polis İdarəsinə qaytarılmışdır.

**Hörmətli redaksiya!**

Binəqədi rayon prokuroru Fuad Məmmədovun Baş prokurorun göstərişlərinə əməl etməməsi, digərlərinin Xəzər rayon Polis İdarəsinin rəhbərliyinin qanunsuz hərəkətlərə (hərəkətsizliyi) yol verməsini həvəslə işiqlandırması, Binəqədi rayon Prokuroru Fuad Məmmədovun etdiyi qanusuz hərəkətlərə bəraət verə bilərmi?

Başqasının qanunsuz hərəkətlərini əsaslandırmaq Binəqədi rayon prokurorunu məsuliyyətdən azad edə bilərmi?

Binəqədi rayon prokuroru Fuad Məmmədovun cavab məktubuna istinad edərək bildirirəm ki, siz 12 aprel 2021-ci ildə Xəzər rayon Polis İdarəsindən, Binəqədi rayon Prokurorluğuna daxil olan materialı 4 ay saxladıqdan sonra Xəzər rayon Polis İdarəsinə geriyə qaytarmısınız. Nəyə görə 4 aydan sonra? Nə idi maddi marağınız? İcraata birləşdirmək üçün Xəzər rayon Polis İdarəsindən daxil olan material sizdə olduğu 4 ay müddətində Vüsal Əkbərovun barəsində istintaq davam etdirilmişdir. Nəyə görə Vüsal Əkbərovun barəsində aparılan istintaq işi başa çatdıqdan və işi Binəqədi rayon Məhkəməsinə göndərdikdən sonra, materialı Xəzər rayon Polis İdarəsinə geriyə qaytarmısınız? Qanunvericiliyin hansı tələbini rəhbər tutmusunuz?

Baş Prokurorluğun göstərişlərinə əməl etməməyiniz barədə bu qurum qarşısında əsaslandırılmış etirazınızı qaldırmısınızmı?

Etirazınızı Baş Prokurorluğa göndərmisinizmi? Baş prokuror sizin bu kimi dəlillərinizlə razılaşmışdırmı? Razılaşdırılmışdırsa, yazılı göstərişlərini geriyə



götürmüşdürmü? Və yaxud da bu işi sizinlə razılaşmayaraq, başqa prokurora həvalə etmişdirmi?..

Qanunvericiliyin tələblərinə istinad edərək bildirirəm ki, əgər Baş Prokurorluq Rusiya vətəndaşı Vüqar Ağəli oğlunun işi ilə bağlı verdiyi tapşırıqları geriyə götürməsə, başqasının qanunsuz hərəkətləri barədə məlumat vermək sizi heç vaxt məsuliyyətdən yayındıra bilməyəcəkdir.

Mən hesab edirəm ki, bir neçə cinayət törətmiş Vüsal Əkbərovun barəsində toplanmış Xəzər rayon Polis İdarəsinin İstintaq Şöbəsi tərəfindən icraata birləşdirmək məqsədilə Binəqədi rayon Prokurorluğuna gondərilmiş materialı icraata birləşdirməmək və 4 ay saxladıqdan sonra geriyə, Xəzər rayon Polis İdarəsinə qaytarmaq korrupsiya amilini təsdiq edən faktordur”.

**Hazırladı: KƏNAN**

***Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***



# Unudulmaz qəhrəmanlıq

**İkinci Qarabağ müharibəsində yağı düşmənə qarşı haqq savaşımızda hünər göstərib adını tarixə yazan qəhrəmanlardan biri də Astaranın Maşxan kəndində dünyaya göz açan şəhid Rauf Cahangirovdur. Ömrünün ən gözəl çağlarında canını qurban verir ki, təki Vətəni yaşasın. Özü yaşasaydı 24 yaşı tamam olardı. Qaldı ki, əbədiyyət ulduzuna dönərək yenə də harada bir müqəddəs əməl var, onun sorağı oradan gəlir. Astara camaatı şəhidin doğulub boya-başa çatdığı ata ocağına toplaşıb onun ad gününü qeyd etdilər. Söz alanlar Raufun uşaqlıqdan Vətənə, doğma torpağına olan məhəbbətdən ürək dolusu danışdılar və hər dəfə onun adı çəkiləndə qürur duyduğunu söylədilər.**




Doğma Maşxan kəndində Vətən müharibəsi şəhidi Rauf Cahangirovun xatirəsinə inşa edilən bulağın açılışı da çox möhtəşəm keçdi. Açılış mərasimində Vətən sevdalısına ehtiram əlaməti olaraq Astara rayonu İcra Hakimiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, şəhidin doğmaları və rayon sakinləri iştirak etdilər.

Rauf Xəyyam oğlu Cahangirov Lənkəran Dövlət Universitetinin "Maliyyə və kredit" ixtisası üzrə bakalavr pilləsini bitirdikdən sonra, yəni 2019-2020-ci illərdə Ağdam rayonunda N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçir. Könüllü olaraq orduya yazılan Rauf Cahangirov yağıya nifrətini həyata keçirməkdən ötrü təlimlərə qatılır. Müharibədə Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Şuşa uğrunda gedən ağır döyüşlərin qəhrəmanı olur. Onun düşmənə vurduğu sarsıdıcı zərbələr böyük zəfərimizə yol açır. 2 noyabr tarixində Şuşa istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Vətən sevdalısı ölümündən sonra "Vətən uğrunda", Füzulinin, Cəbrayılın və Xocavəndin azad olmasına görə medallarla təltif edilir.

Bəli, Rafiqin ömrü qısa olsa da, onu xalqı, Vətəni üçün yaşadı. Odur ki, doğma Azərbaycanımız var olduqca, onun yeri də milyonların ürəyi olacaq.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

**Pritça**

# Dəniz Piratlarının Balladası



**Allahverdi Eminov**

**Çox illər öncə, belə bir bədii film vardı, özümüz çəkmişdik, musiqisi də səhv eləmirəmsə, dahi Qara Qarayevindi. Xəzərin, sinəsində qoruduğu "qara qızıl"ı milli sərvətə çevirən qəhrəman neftçilərimiz barədə idi. Üstündən yarım əsr ötmüş, o soydaşlarımız əbədiyyətə qovuşmuşlar, xatirələşmişlər kino lentlərində. Əvəzində nəvə - nəticələri çalışırlar. Amma əfsuslar olsun ki, əksəri də xarici işbazların (neft bazarların yox a) sərəncamında. Goru çatlamasın bə neyləsin Gülbala Əliyevin, Qurban Abbasovun (məşhur "Neftçi Qurban" mahnısı onun şərəfinədir) və bədii ədəbiyyatın tipik Usta Ramazanların, Tahirlərin, Lətifələrin ruhu. Sözümüz bambaşqadır və bizim mövzumuz deyil. Amma hamımızı - Vətənimizi sevən, Heydər Əliyevdən qalma dövlətçiliyimizin möhkəmlənməsi naminə düşünən hər birimizi o maraqlandırır ki, bir qarış torpaq uğrunda (Qarabağla qarışdırmayın a!), onu şəxsi gəlir mənbəyinə çevirməyin yolları haqqında mübarizə gedir. Torpaq təbii ki, bərəkətdir, altı və üstü sərvətdir, onu da üzə çıxarmalıyıq, əkib - becərməliyik. Məsələ ondadır, Bakının ortasında və qıraq - bucağında balalarımızın oynamaması, fiziki sağlamlığının əksi naminə (sabah onlar torpaqlarımız üçün vuruşacaqlar, hansı vücudla? Pəncərədən boylanmaqla?) qarış-qarış satılır və xalq səsini çıxarırsa, eşidən yoxdur. Tikinti maqnatları iyirminci mərtəbədən aşağıdan qışqırana əl eləyir və pıçıldayır: "Sakit olun, bu hələ harasıdır?" Məktəblilərin öz doğma məktəblərindəki oynadığı idman meydançalarını da o məsələ. Və "o məsələ" nədir? sualına altdan yuxarı göndərəndə əsəbiləşirlər o maqnatlar və bu dəfə barmağını gicgahına döyəcləyir: "Yəni, sənin (sizin e) başın tupoydur. Bilmirsən?**

Nə isə, bu da ayrı bir mövzudur (Vallah, nə qədər Bakının merliyi mövcuddur, o qədər mövzularımız var).

Mən hər həftə Bakı - Salyan və oradan da bu şəhərə gedib - gəlirəm, bir parça çörək üçün 130 km. yolu ölçürəm o yan - bu yana. Məndən soruşanda ki, ömrünün qırx ilini təhsilə qoymusan və respublikada tanınmış pedaqoq - alimsən, qələm sahibisən. Bakıda çalışdığın təhsil sistemində iş tapılmır? Bayılı keçirsən Şıx çimərliyi başlayır. Ələt qəsəbəsinə çatırsan, Xəzərin göyümtül - bulanıq suları köpüklənir, ahəstə pıçıldayır: - Mən sizlərin, həmvətənlərimin Allahdan xəlq olunmuş nemətiyəm, canlı möcüzələr dəniziyəm. İçərim dəmir buruqlar meşəsidir, sizləri ağ günə çıxaran "qara qızıl"ımı əsirgəmirəm. Sahilimə gəlin, lap ailəlikcə, qızmar günəşdə nəfəs alın, istirahətdə bulunun. Amma elə şey var, mənlik - Xəzərlik deyil. Səmimiyyətimə inanın!

Burada şübhələnməli nə var ki, ay möcüzəli Xəzər. Hə, Şıx çimərliyi təxminən iki-üç kilometr xarici şirkətlərə satılıbdırmı, icarəyə verilibdirmi - fərqi yoxdur, hər tərəfdən qıfıllanıbdır, bir quş da ora səkə bilməz, onda Azərbaycan vətəndaşı olsun və 100-200 quş böyüklüyündə adam öz torpağına ayaq basmaq niyyətinə düşə. Xaricilərdən məgər bizim bir qrup işgüzarlar (ticarət sahəsində də var. Səndən alır, dədəsinin qiymətini üstünə qoyub mənə sırıyır) geri qalmışlar. Kababxanalar, kafelər, pivəxanalar və indi də "dərə xəlvət tülkü bəy"likdən - ruhlanaraq, çoxmərtəbəli otellər, motellər və sairlər ucaldırlar. Sivillik buna deyərlər! Yolun sağında isə iki-üç mərtəbəli "domiklər"dir. Sanki pusquda qoyulan pulemyotlardır, üzü Xəzərə. Atəş vəziyyətində tikilibdir ki, işdir - şayətdir ermənilər Xəzərdən hücum eləsələr (bəli, 1918-ci ildə Xəzərdən Salyana Kür vasitəsilə erməni desantları gəliblərmiş) amədə olsunlar.

Şıx çimərliyindən üzü Ələtə sahil torpaqlarının üstünə hələlik naməlum əllər (bəlkə sərəncamlar?) qoymuşlar və ruslar demişkən, "zanitdir". Yüz metrlərlə sahili "kubik" daşlarla hasarlamışlar. Əvvəl baxanda adama elə gəlir, iraq olsun, "gələcək sivil qəbirstanlığ"ın bünövrəsini qoymağı planlaşdırmışlar. Çünki Xəzərin abı - havasına alışan cibidolular (ilahi, onlar bu pulları necə və haradan qazanırlar? Mənsə dediyim kimi, Bakı - Salyan yolunu yağır eləmişəm), istəyirlər ki, öləndə başdaşları üzü Xəzərə baxsın, havanı çəksin və ötürsünlər rəhmətliklərin uyuduğu qəbrə. Amma "Terminal" adlanan neft şəhərciyindən üzü Bakıya hündürmərtəbəli binaların tikintisi başlanmışdır. Yəqin, çox keçməz xalqın, camaatın, hansı ki, isti bölgələrdən buraya gəlirlər Xəzərdə çimsinlər (bu xülyadır, az sonra heç boylana bilməyəcəklər, nəhəng binalar buna imkan verməyəcəkdir). Belə bir haqlı niyyət baş tutmayacaqdır. Və qəribəsi odur, uzun - uzadı sahili daş hasara alanlar "arenda" sözünü yazıb müştəri axtarırlar! Başa düşmək istəmirlər ki, ölkə rəhbərliyi səviyyəsində dənizin kənarında, sahilində tikinti inşa etmək qadağandır.



Bakı - Ələt magistralına bir gözəllik, təmizlik gətirən Xəzəri artıq izolə etməkdədirlər. Kimlərdir, hansı səlahiyyət sahibləridir bu risqə yol verənlər? Bu sahə coğrafi ərazi nöqteyi - nəzərindən Bakıyamı, Qaradağ rayonunamı tabedir? Bunun fərqi var, şübhəsiz, bəs bu yolla bölgələrimizə gedən hökumət səlahiyyətliləri görmürlərmi? Beş-on ildən sonra bu məmləkətin övladlarına cavabları nə olacaqdır? Adamın əlinə fürsət düşəndə satılmaz və dəyişilməz torpağı, suyu xalqdan məhrum edərlərmi? Doğrudanmı, biz azəri - türkləri bu dərəcədə mala - sərvətə, şəxsi keyfə - işrətə aludəyik?

Həmin filmi xatırladım. Qəhrəman neftçilərimizin ruhu Xəzərdə, onun sahillərində dolaşmaqdadır. Onlar möcüzə yaratmışdılar və möcüzəyə də inanmışdılar - ruhları duyur ki, bir qrup dəniz piratları peyda olubdur, yüksək iştahla Xəzərin sahillərinə, çimərliklərinə girişiblər. "Girişmək" hələ nail olmaq deyil və ballada ovqatını yaşamaq da həmçinin. Daş, divan - tərəzi var. Və bir də Xəzər neftçilərinin ruhu.

# 44 günlük “Zəfər yolu” və ya 30 illik işğala son

Akademik Milli Dram Teatrında “Zəfər yolu” adlı tamaşanın möhtəşəm və təntənəli nümayişi oldu. Əsərin və tamaşanın müəllifi, quruluşçu rejissoru Xalq artisti, professor Azər Paşa Nemətov, quruluşçu rəssamları Azər Paşa Nemətov və İlham Elxanoğlu (Əməkdar mədəniyyət işçisi), bəstəkarı Siyavuş Kərimi (Xalq artisti, professor), rejissoru Emil Əskərovdur.


photo:sevinj aslanova

Adından göründüyü kimi, əsər ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə yenilməz Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı tarixi Zəfərə həsr olunub.

Əsərin janrını müəllif “qəhrəmanlıq dramı” adlandırıb. Tamaşa teatrın foyesində başlayır. Və bu başlanğıc öz qeyri-adiliyi ilə seçilir. Aktyorlar tamaşaçılara qarışıb, tamaşanın başlanmasını gözləyirlər. Foyedə birdən-birə ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyev cənablarının cəbhə bölgəsində baş verənlər haqqında məlumatı səsləndirilir. Aktyorlar tamaşaçılarla zala daxil olub, “Bizə silah verin!”, “Bizi orduya yazın!” çığırtıları ilə səhnəyə tərəf hərəkər edirlər.

Yaxın keçmişdə baş verənlər gözümüz qarşısında canlanır. Tamaşanın başlanğıc nöqtəsi ilə dramatik hadisələrin sürətli inkişafına təkan verilir. Dramatik gərginliklə başlayan tamaşa bir-birini əvəzləyən səhnələrdə təqdim olunan hadisələrlə davam və inkişaf etdirilir. Əsərin baş qəhrəmanı ölkə rəhbərinin arxalandığı xalq və bu xalqın güvənc yeri olan yenilməz və qəhrəman Azərbaycan Ordusudur. Cəbhə bölgəsində baş verən hadisələrə görə Prezidentin xalqa müraciəti saysız-hesabsız gənclərin könüllü surətdə orduya yazılması, vətən uğrunda ölüm-dirim savaşına qatılması və doğma torpaqların 30 illik işğaldan azad olunması ilə nəticələnir.

**“Zəfər yolu” əsərində dramatik hadisələrin düzüm mexanikası və iç-içə inkişafı maraqlı və cəlbedicidir. Əsər yazı manerasına görə müəyyən qədər son dövrlərdə bir çox ölkələrdə geniş yayılmış soundrama janrına da bənzəyir. Bu janrda yazılmış əsərlərdə dramatik mətn minimuma endirilib, səs, hərəkət və hadisələrin iç-içə inkişafı maksumuma yüksəldilir. Ölkə başçısının müraciəti ilə Azərbaycan xalqı vahid bir qüvvəyə çevrilir. Hər bir ailə, yaşından, ictimai mənşəyindən asılı olmayaraq işğalda olan torpaqlar uğrunda mübarizəyə qalxır. Hər kəs azadlıq mübarizəsinə öz töhfəsini verməyə can atır.**

Əsərin müəllifi ölkədə baş verən milli azadlıq hərəkatını 4 ailənin timsalında təqdim edir. Azərbaycanın hər bir evində, hər bir ailəsində, hətta azsaylı xalqların ailələrində belə hər kəs vahid amal uğrunda mübarizəyə qalxır. Dramın süjet xətti kimi onun qəhrəmanlarının həyatı da gərgin dramatizmi ifadə edir. Tamaşanın 30-a yaxın iştirakçısı vahid bir istək və amal uğrunda mübarizə aparır. Dramın mahiyyətində gərgin insan istəklərinin qarşıdurması dayanır. Tamaşaçı səbrsizliklə səhnədə baş verən hadisələri izləyir və yaxın keçmiş göz önündə canlanır.

Tamaşaçıya təqdim olunan birinci ailə - Turan kişi (Nurəddin Mehdixanlı, Xalq artisti), Səkinə xala (Hicran Nəsirova, Əməkdar artist), onların oğlanları Azər Orucov (Elçin Əfəndi), nəvələri Arzu (Aylin Həşimova), qonşuları Şakir kişi (Elxan Quliyev, Əməkdar artist), ikinci ailə - Vaqif kişi (Əli Nur, Xalq artisti), Fatma xala (Mətanət Atakişiyeva, Əməkdar artist), onların oğulları Cəbrayıl Məmmədov (Elnar Qarayev, Əməkdar artist), qızları Aygün (Xədicə Novruzlu), gəlinləri (Rada Nəsibova), qonşuları Əhməd kişi (Mirzə Ağabəyli, Əməkdar artist) üçüncü ailə - Leyla (İlahə Həsənova) və Zəfər Təhməzov (Anar Heybətov, Əməkdar artist), dördüncü ailə - Murad Əliyev (İlyas Əhmədov ) və onun anası Mehriban -Afət Məmmədova) əslində dörd Azərbaycan ailəsini deyil on, yüz, min və milyonlarla ailəni təmsil edirlər. Sənətşünas Yuri Borev “Estetika” əsərində yazır ki, bədii obraz -ümuminin fərdidə ifadə olunması deməkdir, bir çox hadisələr üçün əsaslı olan cəhətlərin fərd vasitəsilə və fərddə konkret hissi formada aşkara çıxarılması deməkdir (səh. 148). Tamaşanın bədii obrazı ümuminin fərdidə ifadə olunması kimi anlaşılmalıdır.

**Tamaşada xalqı təmsil edən insanlarla bərabər, hərbi qüvvələri təmsil edən qüvvələr də dramatik hadisələrin gərgin inkişafında iştirak edirlər. Səhnə əsərində - Ayşad Məmmədov (Əməkdar artist və Mətləb Abdullayev, Əməkdar artist), Komandir - Elşən Rüstəmov (Əməkdar artist), Həsən kişi - Rüstəm Rüstəmov, Ertəkin Quliyev - Elsevər Rəhimov, Dmitri Solntsev-Rəşad Bəxtiyarov (Əməkdar artist), David Eduardoviç Sadiyev - Corc Qafarov, Qaçay Əlizadə -Tural İbrahimov, Orxan Hacıyev - Ramin Şıxəliyev, Şamil Şəfiyev - Elnur Qədirov, Tural Hacıyev - Cümşüd Zeynalov, Vüsal Əsgərov - Cavidan Novruzov, Mübariz Mədətov - Vüsal Mustafayev hərbi qüvvələri təmsil edirlər.**

Müəllif tamaşada hər iki qüvvənin ayrılmaz vəhdətini nümayiş etdirir. Tamaşada vaxtaşırı və yerində videogörüntülərdən istifadə olunur: videotəsvirlər səhnənin davamı və ya əksinə səhnə video görüntülərin davamı kimi sıralanır. Ali Baş Komandann video çıxışlarından, səfərbərlik, bir neçə şəhərin raket atəşinə tutulması və sair görüntülər səhnə önü və sənnə davamı kimi təqdim olunur. Hadisələrin ardıcıllığı nəticəsində video görüntülər də dramatik hadisə kimi başa düşülür.

> Müəllif tamaşada hər iki qüvvənin ayrılmaz vəhdətini nümayiş etdirir. Tamaşada vaxtaşırı və yerində videogörüntülərdən istifadə olunur: videotəsvirlər səhnənin davamı və ya əksinə səhnə video görüntülərin davamı kimi sıralanır. Ali Baş Komandann video çıxışlarından, səfərbərlik, bir neçə şəhərin raket atəşinə tutulması və sair görüntülər səhnə önü və sənnə davamı kimi təqdim olunur. Hadisələrin ardıcıllığı nəticəsində video görüntülər də dramatik hadisə kimi başa düşülür...



**Finalda Şuşanın, bu qədim şəhərin işğaldan azad olunması səhnələri, əsgərlərin xüsusi dəzgahla qaldırılması, sıldırım qayalara dırmanması və sair, baxımlı, inandı-rıcı və təsirlidir. Tamaşada həm kino, həm də kütləvi tamaşa prinsiplərindən yerində və düzgün istifadə edilib. Səhnələr qısa və lakonikdir, amma bu qısa səhnələrin mahiyyəti, hadisələrin təsir gücü böyükdür. Hər bir səhnədə baş verən hadisə özündən əvvəlkini davam və inkişaf etdirir. Tamaşada səhnələrin və video görün-tülərin vahid hərəkət strukturu var. Hər bir səhnədə konkret dramatik konflikt nəzərə çarpır.**

Tamaşanın müəllifi səhnələr və video görüntülərdə vahid kompozisiya çərçivəsində dramatik hadisələrin canlı, ifadəli və obrazlı əyaniliyinə nail ola bilir. Aktyor heyəti maraqlı, baxımlı və təsirli ifaları ilə diqqət çəkirlər. Hər bir ailənin hər bir üzvü, o cümlədən, hərbi heyət dəqiq mizan-hərəkət toplusu nümayiş etdirirlər. Hər bir obraz, xüsusən hərbi qüvvələri təmsil edən aktyorlar sərrast, canlı və inandırıcı ifaları ilə yadda qalırlar. Bu, söz yox ki, hərbi heyəti təmsil edən personajlarla təlim keçmiş Mülki Müdafiə Qoşunlarının baş zabiti, mayor Şahlar Həsənovun xidmətidir. Bunun nəticəsidir ki, əsgər və zabit heyətinin üzvlərini ifa edən aktyorlar baxımlı oyun nümayiş etdirirlər.

Tamaşada dramatik hadisələrin inkişafı boyunca obrazların xarakterik cizgiləri üzə çıxır. Tamaşada ənənəvi qaydalara uyğun baş qəhrəman, mənfi və ya müsbət surət yoxdur. Tamaşada baş qəhrəman Azərbaycan xalqı və bu xalqın güvəndiyi milli ordudur. Lakin bu qəhrəman xalqa, bu yenilməz orduya rəhbərlik edən ölkə rəhbəri İlham Əliyevdir. Ölkə rəhbərinin, müzəffər Ali Baş komandanın daxil və xarici siyasəti 30 illik işğala son qoydu. Söz yox ki, müharibə şəhidsiz və qazisiz ola bilməz. 3 minə yaxın çavanımız Vətən uğrunda gedən müharibədə şəhid oldu. Minlərlə əsgərimiz qazi oldu. Nə etməli, müharibə müharibədir. Bizi sevindirən odur ki, ölkə rəhbərinin apardığı düzgün daxili və xarici siyasət nəticə-sində doğma torpaqlar mənfur düşməndən azad edildi. İşğalda olan Vətən torpaqları əsil sahiblərinə qaytarıldı. Belimiz dikəldi, üzümüzdən qəm çəkildi, indi biz hamının gözünə utanmadan dik baxa bilərik. Biz hamılıqla bu yolu keçmişik. Bu yolun isə bircə adı var: Zəfər yolu.

**Xəzər GƏNCƏLİ,**
**rejissor, fəlsəfə doktoru**

# Yalanı yalanla məhv etmək mümkündürmü?

"Türküstan" qəzetinin 9-15 avqust 2022-ci il sayında Asif Aydınlı "Azərbaycan cəmiyyətinə dözümsüzlüyü kim aşılayır?" adlı məqaləsində türk milli şüurunun oyanıb, türk milli və dövlət birliyi uğrunda mübarizədə ilk, lakin önəmli addımlar atmaqda olan türk millətinin bu müqəddəs və şərəfli işinin qarşısını almağa çalışan xarici düşmənlərimizin və onların xüsusilə türk milli birliyinin strateji həlqəsi olan Şimali Azərbaycan Respublikasında mövcud olan bir ovuc əlaltıları vasitəsilə müxtəlif uydurma dini şüarlar vasitəsilə bu milli birlik prossesini əngəlləmək məqsədilə, ən çirkin üsul və vasitələrlə ölkədə sabitliyi pozmaq, son nəticədə ölkənin müstəqilliyinə son qoymaq məqsədinin hədəfləndiyini bir neçə konkret fakt əsasında dəqiq göstərir. O haqlı olaraq yazır:



"Din həmişə siyasi məqsədlər üçün istifadə olunub. Tarix boyu din şüarları altında müharibələr, ərazilərin zəbt edilməsi, mədəniyyətlərin məhv edilməsi ört-basdır edilib. Müasir dünyada dindən həm də siyasi və korporativ maraqların həyata keçirilməsi, xarici siyasət məqsədlərinin həyata keçirilməsi, ideoloji ekspansiya vasitəsi kimi istifadə olunur... Eyni zamanda bu çox vaxt leytmotivi "dini-mənəvi dəyərlərin qorunması", "islamın saflığı uğrunda mübarizə", "şərlə barışmamaq", "despotizmə qarşı üsyan" və s. üzərində qurulan rəvayətlərin ardıcıl olaraq kütləvi şüurlara yeridilməsi yolu ilə həyata keçirilir. Siyasi islamın bəzi apologetləri müsəlman dininin fəlsəfəsini sərbəst və subyektiv şəkildə şərh edərək, antik dövrün tarixi hadisələrini şərh edərək, onları bu günə qədər ekstrapolyasiya etməyə və bununla da cəmiyyəti parçalamağa, dövlət olrqanlarına tabe olmamağa yönəlmiş hərəkətlərə haqq qazandırmağa çalışırlar. Radikallar çox vaxt müəyyən sosial qrupların narazılığından, səhv və ya yanlış hesablamalardan, yaxud bəzi məmurların, siyasətçilərin, deputatların diqqətsiz bəyanatlarından və s. istifadə edirlər. Əksər hallarda sosial şəbəkələrdən vətəndaşları qeyri-qanuni dövlət əleyhinə addımlara səfərbər etmək üçün istifadə olunur".

Tamamilə doğrudur. Müəllif problemin mahiyyətini, tarixən təyinatını və bu gün də kimlər və hansı məqsədlə istifadə və hətta sui-istifadə etdiyini dəqiq və peşəkar səviyyədə müəyyən edərək göstərir. Sonra isə müəllif dini radikalizmin yayılmasına, nifrətin, düşmənçiliyin təbliğinə, vətəndaş qarşıdurmasına qarşı mübarizədə hərtərəfli fəaliyyət proqramı hazırlanmasının zəruriliyini qeyd etdikdən sonra, bu proqramın mahiyyət və məzmunu haqqında fikrini belə ifadə edir: "Ölkə daxilində dini radikalların ictimai həyata təsirini dayandırmaq daha çətin olacaq. Təbii ki, burada təkcə cəza tədbirləri kifayət deyil. Burada əhalini maarifləndirmək, onu populist təbliğatdan qorumaq, islam dininin zorakılıq, düşmənçilik, nifrət, parçalanma gətirmədiyini, əksinə onun dəyərlərinin xeyirxahlıq, sevgi, şəfqət, mərhəmət, maarifləndirmə, qayğıkeşlik olduğunu izah etmək üçün sistemli iş lazımdır".

Daha sonra isə maarifləndirmə işində Qafqaz Müsəlmanları idarəsi, onun Qazılar şurası, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin səmərəsiz fəaliyyətindən, daha doğrusu fəaliyyətsizliyindən gileylənir.

İlk növbədə müəllifin dini radikalizmin cəmiyyətə, ictimai həyata təsirini dayandırmaq üçün təkliflərinə baxaq. K.Marks yazır ki, - "Vaxtı çatmış ictimai hadisələrin baş verməsi üçün zor mamaça rolunu oynayır". Hər hansı bir din cəmiyyətdə təşkilatlandığı andan mütəşəkkil qüvvəyə, deməli gücə, çevrilməklə həmin andan şəxsi düşüncə vasitəsi olmaqdan çıxaraq, siyasi, ideoloji və fiziki zor vasitəsinə çevrilir. Onun miqyası və gücü çoxaldıqca iddiaları və radikallıq səviyyəsi də çoxalır. Bu gün Azərbaycan Respublikasında həm miqyas, həm də radikallıq dərəcəsi etibarilə mövcud olan dini radikallıq hökumətin rəsmən icazəsi ilə mövcud olub, dini kontingent istehsal edən Qafqaz Müsəlmanları idarəsi, İslam Universiteti, leqal və qeyri-leqal surətdə başqa ölkələrə dini təhsil almağa göndərilənlərin, xüsusilə də İranın rəsmi Xüsusi nümayəndəsi Ocaqnəjadın dəstəsinin ölkədə 30 illik fəaliyyətinin, ölkədə qeyri-leqal dini təhsil şəbəkəsinin və xarici ölkə, o cümlədən İranın ticarət və bir sıra digər sahələrdə işçilərin işə qəbul edilməsində dini geyim, rituallara əməl edilməsi şərtlərinin mövcudluğunun nəticəsidir. Buna görə də müəllifin yuxarıda göstərdiyi vasitələr ölkədə dini radikallığın nəinki qarşısının alınmasını, hətta onun ictimai həyata təsirini heç bir dərəcədə neytrallaşdıra bilməz.

Müəllifin problemə yanaşmasındakı yanlışlıq bununla sona yetmir. Problemin həlli üçün təklif etdiyi sonrakı təkliflər paketi isə cəmiyyət üçün daha müdhiş nəticələrə səbəb olacağı daha realdır. Əvvəlcədən bir məsələni qeyd edim ki, ölkədə dinin mövcudluğunu təmin etməklə bərabər onun Tehran rejiminin Şimali Azərbaycan Respublikasına qarşı ideoloji silah kimi istifadə etdiyi fars şovinist milli məqsədlərinin reallaşması vasitəsi olan şiəliyin (Əhli-Beyt) cəmiyyətimizə radikal təsirini neytrallaşdırmaq məqsədilə görülən tədbir olaraq cəmiyyətin Əhli-Beyt qisminin şüuruna yeridilmiş fars şiəliyində bir sıra islahatlar aparmaq nəzərdə tutulur. Hədəf isə ölkədə mövcud şiəliyin radikalizmini aradan götürməklə bərabər, onu Türkiyədə mövcud olan "ərəb islamı"na yaxınlaşdırmaqdır. İslahat sifarişçilərinin və proqramı müəlliflərinin ən əsas səhvi də bundadır ki, nəinki islam dinimin, hər hansı bir dinin radikallığının səbəbi heç də onun fars, ərəb və hər hansısa digər millətin milli maraqlarının həyata keçirilməsi vasitəsi olması deyil...

Lakin həyatın real prosesləri milli mənsubluğundan asılı olmayaraq insanların şüuruna tədricən təsir etməklə gec-tez onun zehninə vurulmuş qandala qarşı mübarizəyə qalxmağa sövq edir. Biz bunu orta əsr Avropasında dini hakimiyyətin dünyəvi dövlətlə əvəz edilməsi, 74 il SSRİ-də mövcud olmuş materialist din olan "bolşevizmin" aqibətində, İran adlanan coğrafiyada dini rejimin qurulması prossesində gücünü, bacarığını, hətta həyatını belə əsirgəməyənlərin 43 il belə keçməmiş dini rejimə və onun rəhbərlərinə son dərəcə irimiqyaslı etiraz nümayişlərində "Ölüm" şüarları səsləndirməsi prossesində də görürük...

Hakimiyyətə gəldikdən sonra həyati reallıqlara uyğun gəlmədiyindən cəmiyyət üzvlərinin maraqları, şüur səviyyəsi ilə dini doğmalarla müəyyən edilən çərçivə və qaydalar arasında yaranan antoqonist ziddiyyət səbəbindən öz hakimiyyətini, dini mütləqiyyəti köbud zor vasitəsilə qorumağa məhkum olur. Bu da bu gün İran adlanan coğrafiyada əhalinin əksəriyyətinin Tehran rejiminə olan mənfi münasibəti formalaşdırır. Bu baxımdan Azərbaycan Respublikasında ərəb islamı ilə fars şiəliyi arasında neytral bir dini təriqətin formalaşdırılması sonda iflasa məhkum olan bir işdir. Bu ən yaxşı halda ölkədə fars şiəliyinin ictimai həyata təsirini müəyyən qədər azaltmış olsa da, ümumilikdə nəticə etibarilə nə dini fanatizmin, nə dini radikalizmin cəmiyyətə təsirini nə orta, nə də uzun müddətə nəinki qarşısını almayacaq, əksinə onu daha da genişləndirərək gücləndirmiş olacaq.

İstər ərəb islamının, istərsə də fars islamının (şiəlik, Əhli-Beyt) bu günə qədər türk insanlarının zehninə, şüuruna hakim kəsilməsində ərəblərdən, farslardan çox türk sultanları, türk şahları günahkardır. Yəni, istər ərəblər, istərsə də farslar bu ideoloji qandalları türk insanlarının zehninə bizim öz əlimizlə vurmuşlar.

*(Ardı var)*

**Şapur QASİMİ**

# Putinin tövbə duası

Ululardan Ulu Tanrım,
Tövbə edib yalvarıram,
Yardım elə isa Məsih!
İşlər getmir doğru, səhih;

- Ukraynada ilişmişəm,
Çox-çox nahaq qan tökmüşəm.
Şəhərləri viran edib.
Xarabaya çevirmişəm.

Xaxolların əzmini mən,
Əsla qıra bilməmişəm.
Əlli min də şəhid verib
Uğur əldə etməmişəm.

Düz səkkiz il bundan öncə
Mən Krıma vurub pəncə
İşğal etdim çox yüngülcə,
Ukraynanın bir qismində

Qurdum kiçik hökümət də.
Dişim batdı lap şirəyə
Düşündüm ki, Ukraynanı
İşğal edib üççə günə

İmperiyanı bərpa edib
Düşəcəyəm dildən-dilə,
Çağdaş silah gücü ilə
Avropanı diz çökdürüb

Özgürlüyü, azadlığı,
Dadacağam (süngü) ilə.
Dünyanın güc sahibindən.
Birisi də mən olacağam,

Rus xalqının qüdrətindən.
Qürlənib feyz olacam,
İmdada yet isa Məsih!
İşlər getmir doğru sahih:

Daş qayaya rast gəlibdir,
Ukrayna bərk dirənibdir,
Arxasında böyük güclər.
Dayanaraq düzlənibdir,

Hər cür maddi yardım edir,
Ən müasir silah verir.
Bizə qarşı sanksiyalar,
Sərtləşərək lap bərk gəlir.

Qoymayır ki, nəfəs alaq
Gücümüzü toparlayaq
Kömək elə Həzrəti İsa!
Dar gündədi indi Rusiya

Göy üzündən gəldi səda:
Dinlə məni, misgin səda
Buyurmuşdum ümmətinə
İnsanlara, canlılara

Hər bir zaman, hər bir yerdə
Göstərib öz mərhəmətin,
Öz sevgisin, şəfəqqətin:
Bir əziyyət heç verməsin

İsa Məsih hörmətinə.
Qayğı, sayğı hey göstərsin,
Siz getdiniz tam əksinə
Sərvət, dövlət, mal eşqinə

Viran edib neçə ölkə
O ölkənin xalqlarını
Özünüzə etdiz kölə.
Sizə tabe olmayanın
Soyun kəsdiz yetərincə.
Pyoturdan üzü bəri
neçə-neçə türk xalqını
Əridərək içinizdə
Sahib olduz (mal-mülkünə,)
Nöqtə qoyduz soy-kökünə.
(Bığ Stalin alçaq, tiran)
Sürgün edib öz yurdundan.
Tatarları məhz Krımdan
Yerliyə Siz (utanmadan)
Yersiz gəldi qaç dediniz

Krım xalqı yurdu üstə
Hələ qızğın dava gedir,
Sürgün olmuş türklər isə
Öz yurduna dönə bilmir!

Buna Rusiya imkan vermir.
İmperiya xislətindən
Məhv olsa da əl çəkməyir
İmperiya sevdası da

Rus xalqına olub bəla,
Torpaqları çox olsa da
Hücüm edir ona-buna,
Sənin kimi heyvərələr.

Öz xalqını sevməyənlər.
Qoymayır ki, xalq sağalsın
Baxıb azad ölkələrə
İbrət alıb ağıllansın.

Nə qoyursan xalqı yaşasın,
Nə də qonşu rahat yatsın,
Azad, özgür nəfəs alsın:
(Gəl, yalvarıb heç sızlama)

Bu xoş getmir bir Allaha!
Ona-buna xorlanma,
Silahınla lovğalanma,
Hədələyib bu dünyanı,

Qorxu altda sən saxlama!
Get, ağlını yığ başına,
Nə tökürsən öz aşına,
O çıxar qaşıqına

Alman yeyən millətini
Xam xəyala düşməsini,
Acı, qara taleyini!
Sənin xalqın qalıb yada

Düşməsin heç bu sevdaya!
Onların bu xəstəlikdən
Sağalaraq həqiqətdən
Çox tərəqqi etməsindən
Sənin xalqın alıb ibrət,
O yol ilə getsə əlbət,
Bəlkə qəbul ola tövbən
Ümid kəsmə sən də fəqət
Bir Allahın rəhmətindən!

**Mir Yəhya Yusifli**
*07.08.2022-ci il*

## ÜRƏYİM SƏNİNDİR, ÖMRÜM ALLAHIN!

Zamanın getməyi su axmağıdır,
Buraxdığın yerdən götür, dön, məni...
Başımın daşı da darıxmağımdır,
Bilmirəm oxşatdın kimə sən məni...
Qurbanın olmağa indi can çoxdur,
Qeydinə qalanlar yalannan çoxdur...
Bilirəm başına dolanan çoxdur,
Heçmi anlamadın,görəsən,məni?..
Hər gün ağlımdasan,çox vaxt yuxumda,
Yorulmaq bilmədim sənin çoxundan...
Həyatım-taleyim çıxıb oxundan,
Heçmi düşünmürsən,heçmi sən məni?..
Bu kiçik dünyanı illərlə qurdum,
Sonra da götürüb yerlərə vurdum...
Gözünün önündə oqqədə durdum,
Arzu elədim ki,görəsən məni!..
Özünə uzağam,evinə yaxın,
Düzünü bilməkçin hayandan baxım?..
Ürəyim sənindir,ömrüm Allahın,
Ya O aparmalı,ya da sən məni!..

* * *

## YOXSA

Ana bala üçün "dilənçi" olar,
Saxlamağa nə var bir başı, yoxsa?!
Bəzən də gününə gülər adamlar,
Hələ bir yanında yoldaşı yoxsa...
Ağladığım günlər bir ayrı ömür,
Ürək əzildiyin unutmur heç cür!..
Hamı gözlərimin içini görür,
Nə isə söyləmir göz yaşı,yoxsa?!
Mənim mücadiləm sona qədərdi,
Dözümü canıma Allah göndərdi,
Çəkib qurtarmazdım bir belə dərdi,
Çoxdan uduzardım savaşı,yoxsa..
Kim deyir sevməkdən acığım gəlir,
Sıxırlar daşları üstümə bir-bir...
Heyif ki ona da yazığım gəlir,
Çırpardım başına bu daşı,yoxsa...
***8.04.22***

* * *

## EŞQ OLSUN

Mənim candostlarım, yol yoldaşlarım,
Bu gün burdayıq da, buna eşq olsun!!!
Dünənə əl çatmır, sabaha qalıb...
İndi durmuşuq yan-yana, eşq olsun!!!
Azmı itirmişik ömürdən zaman?!
Saçlarda ağ bulud,gözlərdə duman...
Ürəkdir həmişə şəfqət, eşq uman,
Ən yaxşımız odur, ona eşq olsun!
Kim bilir ayrılıq harda gözləyir...
Bir yerdə olmaqdır ən gözəl şeyir!
Heç kim sevdiyini unutmur,xeyir!
Nəfəs aldığın hər ana eşq olsun!
***27.05.22***

* * *

## BALA

*(Teymurzadə Nahid və bütün şəhidlərə,şəhid anasının dilindən)*

Bala, mehribanım, qurbanın olum,
Dönüm başınıza bir-bir, ay bala...
Hər gün azan vaxtı hiss eləyirəm
Kimsə evimizə girir, ay bala...
Bala saxlamışdım boyuna baxım
Sevinim, qoxlayım, sinəmə sıxım...
Yenə də sabaha mən necə çıxım...
Qoymursan ağlayım??? Nədir,ay bala?..
Bilmirsən canım da necə yaşlanır,
Günüm gün başlamır, hicran başlanır...
Düzülüb yan-yana məzar daşları...
Bu karvan hayana gedir, ay bala?..
Sənsiz ev-eşiyim qəm yüklüdür, qəm,
Həm candan bezmişəm, yaşayıram həm...
Sübh vaxtı mən hər gün nə eşidirəm--
Allaha agahdır bu sirr, ay bala...
***13.05.22***

* * *

## MƏNİM DEYİLDİNSƏ...?

Ömrümə bir dəstə acı gətirdin,
Səni çox sevəcəm, yoxsa bilirdin?..



Getməyin bir oldu gəlməyin ilə,
Mənim deyildinsə,niyə gəlirdin?..
Ortada tək qalmaq elə ağırdır,
Adını batırmaq elə ağırdır,
İnanıb atılmaq elə ağırdır...
Madam,vardı kimsə,niyə gəlirdin?..
Ayrılıq əzabın mənim canımda,
Mənim düşmənlərim sənin yanında!!!
Sənə qurban idi ömür-canım da...
Məndən çox yadlarla deyib-gülürdün...
Yenə mənimkilər qaldı mənimlə,
Neynəyim illərlə gəlməyənimlə?..
Nə üçün elədin belə mənimlə,
Mənim deyildinsə, niyə gəlirdin?

* * *

## BİR ÇİÇƏYİ VAR...

Bu külək,bu hava yağışa oxşayır,
Sakit durmayacaq Allah da...
Məni,nə isə çıxıb getməkdən saxlayır...
Dünya başqa rəngdə olacaq sabahdan!..
Bir qədər səbrini bassan,
hər şey dəyişəcək,
Hamı tez bağışlamır ki...
Elə bilirsən çox yaşadığın ömürdü?!
Adam axıracan yaşamır ki...
Hər qapı arxasında biri var,
Hər soyuq bədəni bir ümid isidir...
Arzular insanı ayırıb aparar,
Hərə birindən qalır yetim...
Hər gülən bir şey tapmasa da,
Hər ağlayan bir şey itiribdir...
Sevməkdən başlayır ayrılmalar,
Ən pis xəbəri kim sənə gətiribdir?..
Pəncərəsindən işıq gec gələn o evdə
O qadın niyə tək yaşayır,
Heç kəsi yoxduuur???
Darıxıram...
Orda bir adam dayanıb,kölgəsi yoxdur...
Bəlkə özünsən uzaqdan səni çağıran...
Bu külək,bu bulud sakit durmayacaq,
Tökəcək...

* * *

## SƏBRİN SARAYI

Yerləşmişəm səbirin sarayına,
Suvarıram bağçasın göz yaşımla...
Sahib çıxmışam öz kədər payıma,
Düzlüyümə cavabdehəm başımla!
Yağışının gözlərindən öpürəm,
Küləyini geyinmişəm əynimə...
Kimsə adımı çəkəndə, tüpürən
Sonra onu sildirəcək, bəs, kimə?!
Yağış yağır, yenə dua elədim,
Əlimi açanda artıq yaş idi...
Həyatımın möcüzəsin dilədim,
Buludlar səs saldı,bu,alqış idi!!!

* * *

## QORXUNDAN AĞLAYIRSAN

Ürəyində yandırdığın şamlar sönür...
Qırıqlarını yalannan bağlayırsan ..
Yorulur ayaqların,ürəyin,başın,
Canın yorulur,
Offffff, deyib,
Az qala,Tanrını bıçaqlayırsan...
Əlindən yapışıb aparanın yox,
Qalmısan həyatın qıraq yerində...
Bir bu qədər də dözərdin,helə canın yox...
Bir körpə qız dizlərini yığıb ağlamsınır
Ürəyinin uşaq yerində...
Getdin,çox qalmadın...
Ona apardığın arzuları
Sındırıb qaytardın geriyə...
Sən onun heç nəyi oldun!!!!!!!!!!
Gözlərinin qabağında neçə dəfə ağladın,
Bir dəfə maraqlanmadı ki,niyə...
Sən bu biganəlikdən yoruldun!!!
Amma yenə ona aid şeylər saxlayırsan,
Bəzən yuxular sevincinə səbəb olur,
Deyirsən,gələcək!!!
Üstündən vaxt keçir...
Hanı,yoxdur!..
Axı,deyəsən,bu adam səni
öldürməkçün and içib...
Sən al...

* * *

## ADAMA NEYNƏDİN?..

Ən yaxınında ən uzaq tutduğun,
Sevməyi unutduğun
Adama neynədin,denən???
Sənə görə hər şeyini
Atana neynədin,denən???
Bilsən ki onu incitməklə,
Yaradana neynədin!!!
Bir adam çox susa bilər,
Susmaq heç şey bilməmək deyil!
Hələ nəfəs almaq ölməmək deyil!
Mənim olmadı yanımda Qalan da!!!
Sənin üçün çox şey gətirmişdim gələndə,
Heç birinə fikir vermədin...
Səndən ötrü darıxanda,
Dəli kimi pis olanda...
Heç yuxuna da girmədim???
Hər şeyim xəstələndi,verdiyin zəhərlə,
Hamını qayğınla bəslədin,
Məni kədərlə...
Bəlkə məni də Adam sayardın...
Hər şeyini verdiklərin nəyindi sənin???
Sən ey uzaq keçmişimdən
gələcəyimə apardıqlarımı
Bir sözü ilə əllərinə
Təslim etdiyim?..
Mənə,zatən,heç nə bağışlamadın,
Heç mən də istəmədim!!!
Sadəcə, sevərdin...
Yaşamağa qoyardın!!!

* * *

## MƏNİ BAĞIŞLAMAZLAR...

Dünən qapıda nərgizgülü çiçək açıb,
Qopartmağa qıymamışam,
Dizimi yerə qoyub onu iyləmişəm...
Dünən hava qaralandan sonra
Allahı çağırıb ağlamışam,
Gecə sənin harda və kiminlə
olduğunu düşünmüşəm...
Bax,yenə səhərdir,
Gözəl,bir az dolmuş,sakit havada
Şehli otlardan nəfəs alıram...
Yerə yavaş-yavaş qırmızı kölgə düşür...
Gözümün altındakı yaşı sildim,
Əslində,ürəyimdə çoxlu sözlər var,
Bədənim zəifləyib,
Amma yaşamaq istəyirəm...
Dünyada görmədiyim adamlar,
Getmədiyim yerlər var...
Məni bağışlamazlar çatmadığım arzular!..

* * *

## NİYƏ QOYDULAR?!

Günlərdən birində xoş xəbər aldım,
Görmədən adına meylimi saldım...
Özləri vurdular,çarpılıb qaldım,
Sonra da halımı lağa qoydular...
Adama saymadı adamlar məni,
Pis özgə səsləri etdi kar məni!..
Atıb,əylənməyə qaçdılar,məni,
Dallarınca baxa-baxa qoydular...
Kişi alçaldarsa,nə olar qadın?!
Buraxın əvvəlki yerimdə yatım!!!
Xırda bir şey vardı,mən tutdum adın,
Onu da qaldırıb dağa qoydular...
Vecimə deyildir nə gedər-gələr,
Canım Bir Olandan rahatlıq dilər...
Madam,İlhaməyə ev vermişdilər,
Onda,niyə ordan çıxa qoydular?!
***9.04.22***

* * *

## ALLAHIN EVİ

Allahın evinə getdim ağladım,
Möcüzə istədim Allahdan orda!..
Öpüb,ələminə yaylıq bağladım,
Qoydum içimdəki bu ahdan orda!..
Məni gic yerinə qoyanlar bilir
Hər şeyçün kimlərdə günah var,bilir!..
Hamısı,dalınca bir ah var,bilir,
Tufanlar qopacaq sabahdan orda!..
Susuram,qəlbimi deşsə də sözlər,
Allah da bəndədən etiraf gözlər!
Bəzi olanları İlhamə gizlər!..
Yarı can burdadı,yarı can orda!
***14.05.2022***

* * *

## OLUR?

Hər niyə ayrılsaq, biz ayrılmışıq,
Ayrılmağın başqa adımı olur?!
Yaman sevinirlər,heç eybi yoxdur,
Düşmənin doğması,yadımı olur?!
Səni görən günə qayıda biləm,
Ondan bu tərəfin hamısın siləm...
Vaxt keçib hələ də yaxşı deyiləm,
Qırılan ürəyin odumu olur?!
Bir gör həyatıma kim soxulubdur,
Ömrüm də,günüm də pis dağılıbdır...
Fərqi yox anadan kim doğulubdur,
Qadın sevilməsə,qadınmı olur?!

* * *

## MƏNİMSƏNSƏ, HEÇ KİMİNSƏN!

İndi məndən uzaqdasan,
Kim deyir ki, heç kimimsən?!
Çöldən olmaq olmaq deyil,
Sən mənim ən iç kimimsən!!!
Üzümə təbəssüm qondu,
Dünya odmu tutub yandı???
Hər şeyim saflığımdandı,
Deməsinlər gic kimisən!
Külək əsdi sübhə kimi...
Dur yumruqla ürəyimi!
Sənin etdim hər şeyimi,
İndi özün seç, kimimsən?..
Bu qapı mənə açılıb!!!
Adını qəlbim qaçırıb!..
Qollarım sənə açılıb,
Mənimsənsə, heç kiminsən!!!

**İlhamə ABDUL**